QARABAĞ AZƏRBAYCANDIR!

Səs

№ 195 (6636) 25 oktyabr 2022-ci il. Qiyməti 60 qəpik

## YAP xalqımızın milli maraqlarını ifadə edən avanqard siyasi qüvvəyə çevrilib!

8

## AZƏRBAYCAN-GÜRCÜSTAN: strateji tərəfdaşlıq müttəfiqlik səviyyəsinə yüksəlib!



2

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 24-də Gürcüstana işgüzar səfər edib

# Bütöv Azərbaycanın ayaq səsləri!

Bu əzmi Səttarxan, Xiyabani, Pişəvəri kimi tarixi şəxsiyyətlərin nəvə-nəticələri, kötücələri yaşadır



6



## Ermənilər Qafandakı yunan kilsəsini tövləyə çeviriblər!

9

## Yoxsulluğun azaldılması proqramı: nəyə nail olunub?



15

## "Siyasi Partiyalar haqqında" yeni qanun layihəsi Azərbaycanda mövcud siyasi sistem nəzərə alınmaqla hazırlanıb



4

## "Aksiyaların keçirilməsi bir növ şoudur"



7

## Avtobuslar üçün xüsusi zolaqlar çəkilir: Tıxac aradan qalxacaq?



## Həmyerlilərimiz Fransanın petisiya saytında müraciət yerləşdirib




6

# AZƏRBAYCAN-GÜRCÜSTAN:
# strateji tərəfdaşlıq müttəfiqlik səviyyəsinə yüksəlib!

*Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 24-də Gürcüstana işgüzar səfər edib*

**Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 24-də Gürcüstana işgüzar səfər edib. Dünən Mçxeta rayonundakı Muxrani sarayında (Cateau Mukhrani) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə təkbətək görüşü keçirilib. Görüşdə Azərbaycan-Gürcüstan əlaqələrinin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıldı.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili oktyabrın 24-də Mçxeta rayonundakı Muxrani sarayında (Chateau Mukhrani) "Qarabağ xanlığının irsi" sərgisi ilə tanış olublar. Sərgidə "Qarabağ xanlığı. Tarixi və mədəni kimlik" kitabı təqdim edilib.

Qeyd edək ki, sərgidə nümayiş olunan fotolar "Qarabağ xanlığı. Tarixi və mədəni kimlik" kitabından seçilərək götürülmüş artefaktlar əsasında hazırlanıb. Onların arasında Qarabağ xanlığına aid edilən bayrağın məlum olan ilk təsvirini, Qarabağ xanları sülaləsində qorunmuş Şah İsmayılın qalxanı, qədim xalçaları, Sərdar məscidinin və onun fasadının dekorasiya plitələrini, həmçinin XIX əsr Şuşa şəhərinin görüntülərini, XIX əsrin sonu-XX əsrin əvvəllərində Sərdar xan sarayının fasadını və daxili görünüşünü, XIX əsrə aid at yəhərini, iki tar və üçsimli kamançanı əks etdirən fotolar, Mirzə Qədim İrəvaninin müəllifi olduğu Həsən Qulu xan Qacarın, Fətəli şah Qacarın portretləri xüsusi maraq doğurur.

Müəlliflər qrupunun rəhbəri professor Eldar Nadiradze olan "Qarabağ xanlığı. Tarixi və mədəni kimlik" adlı kitabda isə XIX əsrdə çar Rusiyasının Qarabağda həyata keçirdiyi hərbi və elmi ekspedisiyaları zamanı toplanan və hazırda Gürcüstan Milli Muzeyinin fondlarında saxlanılan, Qarabağ xanlığına aid olan 300-dən çox artefaktın rəsmi yer alıb. Bu artefaktlar muzeyin arxivinə təhvil verildikdən sonra müəyyən səbəblərdən heç vaxt açılmayıb və 100 ildən artıq bir dövrdə arxivdə kataloqlaşdırılmadan saxlanılıb.

**İlham Əliyev:**

"Biz hesab edirik ki, Azərbaycanla Ermənistanın sülh müqaviləsi imzalamasının vaxtı gəlib çatıb"





Çox nadir mədəni irsimizin göstəricisi olan nəşrdə kataloqlaşdırılmış bu kolleksiya Azərbaycan tarixinin ayrılmaz hissəsi olan Qarabağ xanlığına, onun zəngin mədəni irsinə beynəlxalq marağın artmasına töhfə verəcək. Qeyd edək ki, kitab Azərbaycan, rus, ingilis, fransız və ərəb dillərində nəşr olunub.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili öz bəyanatında diqqətə çatdırıb ki, bizim ölkələrimiz arasında misilsiz dostluq əlaqələri və sıx münasibətlər var. Həmin münasibətlər tarixi əlaqələrimizə və qarşılıqlı hörmətə əsaslanır:

-Cənab Prezident.

Hörmətli dostlar, qonaqlar.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi burada səmimiyyətlə salamlayıram. Cənab Prezidentə təşəkkür edirəm ki, bu gün Gürcüstana səfərə gəlib.

Ölkələrimiz arasında olan mehriban qonşuluq münasibətləri və strateji tərəfdaşlıq, o cümlədən əməkdaşlığımızın gündəliyi Sizin səfərinizin əhəmiyyətini vurğulayır. Onu da vurğulamaq istəyirəm ki, Azərbaycanla Gürcüstanın bu qədər yaxın olmasında Sizin töhfəniz çox böyükdür. Bizim ölkələrimiz arasında misilsiz dostluq əlaqələri və sıx münasibətlər var. Həmin münasibətlər tarixi əlaqələrimizə və qarşılıqlı hörmətə əsaslanır.

Mən əminəm ki, mövcud əməkdaşlığımız ölkələrimizin və xalqlarımızın rifahı naminə daha da yüksək səviyyəyə qalxacaq.

Bu gün bizim çox vacib görüşümüz oldu, müxtəlif məsələləri müzakirə etdik və ölkələrimiz arasında sıx tərəfdaşlığı bir daha vurğuladıq.

Ardı Səh. 3

# AZƏRBAYCAN-GÜRCÜSTAN:
## strateji tərəfdaşlıq müttəfiqlik səviyyəsinə yüksəlib!

*Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 24-də Gürcüstana işgüzar səfər edib*

Əvvəli Səh. 2

Biz hazırda dünyada baş verən prosesləri müzakirə etdik və razılığa gəldik ki, bu gün Ukraynada baş verən hadisələr məhz danışıqlar yolu ilə həll edilməlidir.

Onu da nəzərdən keçirdik ki, dünyada baş verən hadisələr yalnız sülh və sabitlik yolu ilə həll olunmalıdır. Bu, həm bizim regionumuz, həm də xalqlarımız üçün vacibdir.

Bununla yanaşı, biz regional vəziyyəti, Azərbaycan və Ermənistan arasında olan təmasları, iki ölkə arasında sülh prosesini nəzərdən keçirdik. Şəxsən mən və bizim hökumətimiz ümidvarıq ki, sülh siyasətini həyata keçirmək üçün əlimizdən gələni edəcəyik. Regionumuzdakı mehriban qonşuluq əlaqələri heç bir əməkdaşlıq formatına zidd deyil, bunu yalnız gücləndirəcəyik və əminəm ki, biz bir yerdə çox işlər görə bilərik.







**İlham Əliyev:**
"Bugünkü səfər Azərbaycan-Gürcüstan qardaşlıq münasibətlərinə yeni təkan verəcək"

**İrakli Qaribaşvili:**
"Prezident İlham Əliyevin Azərbaycan-Gürcüstan əməkdaşlığına töhfəsi böyükdür"

Cənab Prezident, Sizin Cənubi Qafqazda əməkdaşlıq formatının yaradılması barədə Praqada irəli sürdüyünüz təşəbbüsü də dəstəkləyirəm.

Biz iqtisadiyyat, enerji, nəqliyyat məsələlərini nəzərdən keçirdik. Gürcüstan Azərbaycan üçün önəmli ölkədir və eyni zamanda, Azərbaycan da Gürcüstanın strateji tərəfdaşıdır. Biz artıq reallaşdırdığımız mühüm layihələri nəzərdən keçirdik. Bunlar tarixi layihələrdir - Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu və Orta Dəhliz. Bizim həyata keçirdiyimiz layihələr bundan sonra da irəliyə aparılacaq və onları daha da sürətləndirmək əzmindəyik.

Mən Sizin atanızdan, ölkənizin Ümummilli Liderindən sitat gətirmək istəyirəm. Onun xatirəsinə bizim dərin ehtiramımız var. O, vaxtilə Gürcüstanda Tbilisidə olanda demişdi, Azərbaycan və gürcü xalqları xoşbəxtdirlər ki, onlar qonşu xalqlardır. Bizim əcdadlarımız həmin təmasları yaradıb və bu gün bizim vəzifəmiz odur ki, həmin əməkdaşlığı irəli aparaq və gələcək nəsillərə ötürək."

Sonra dövlətimizin başçısı bəyanatla çıxış edib. Prezident İlham Əliyev öz bəyanatında əmin olduğunu bəyan edib ki, bugünkü səfər Gürcüstan və Azərbaycan arasındakı dostluq və qardaşlıq münasibətlərinə yeni təkan verəcək:

-Hörmətli cənab Baş nazir.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, cənab Baş nazir, ölkənizə dəvət etdiyiniz üçün Sizə təşəkkür edirəm. Biz Gürcüstanın bu gözəl yerində görüşürük, çox gözəl mənzərəli yerlərdir. Eyni zamanda, küləkdir, sanki Bakı küləyidir. Bu, onu göstərir ki, külək də bu gün bizim burada olmağımızı alqışlayır. Yəni, mən doğrudan da özümü evimdəki kimi hiss edirəm. Mən yenidən Gürcüstanda olmağımdan çox məmnunam.

Cənab Baş nazirlə bizim görüşlərimiz teztez keçirilir. Təkcə keçən il hörmətli cənab Qaribaşvili iki dəfə Azərbaycanda səfərdə olub. Eyni zamanda, beynəlxalq təşkilatların keçirdiyi tədbirlər çərçivəsində də biz daim görüşürük. Əminəm ki, bugünkü səfər Gürcüstan və Azərbaycan arasındakı dostluq və qardaşlıq münasibətlərinə yeni təkan verəcək. Bu münasibətlər çox dərin ənənələr üzərində qurulub. Əsrlər boyu xalqlarımız dostluq, qardaşlıq, mehriban qonşuluq şəraitində yaşamışlar. Dövlətlərarası əlaqələr də bu möhkəm təməl üzərində qurulubdur.

Bu gün strateji tərəfdaşlıq əlaqələrimiz demək olar ki, müttəfiqlik səviyyəsinə qalxıbdır. Çünki bir çox sahələr üzrə biz fəal əməkdaşlıq edirik. Həm beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birimizi dəstəkləyirik, eyni zamanda, ikitərəfli formatda. Bir çox önəmli layihələr təkcə ölkələrimiz üçün deyil, bölgə üçün, bütövlükdə Avropa üçün xüsusi əhəmiyyət daşıyır. Cənab Baş nazir qeyd etdiyi kimi, bu gün bir çox məsələlər müzakirə olundu. Hələ müzakirələr davam edəcək. Əlbəttə ki, bölgədə gedən proseslər, təhlükəsizliklə bağlı olan məsələlər müzakirələrin mərkəzində idi. İkinci Qarabağ müharibəsindən sonra yaranmış vəziyyətlə və Ermənistanla Azərbaycan arasında sülh danışıqlarının gedişatı ilə bağlı mən Baş naziri məlumatlandırdım. Biz hesab edirik ki, Qarabağ münaqişəsi başa çatandan sonra vaxt gəlib çatıb ki, Azərbaycan və Ermənistan sülh müqaviləsi imzalasınlar. Hər halda, bizim niyyətimiz bundan ibarətdir. Biz beş əsas prinsipdən ibarət təkliflərimizi Ermənistan tərəfinə təqdim etdik. Ümid edirəm ki, Ermənistan tərəfi də siyasi iradə göstərərək beynəlxalq birlik tərəfindən tanınan bu əsas təməl prinsiplər əsasında Azərbaycanla sülh müqaviləsini imzalayacaqdır. Əgər belə olarsa, Cənubi Qafqaza sülh gələcək və eyni zamanda, əməkdaşlıq üçün imkanlar yaranacaqdır. Bu gün, eyni zamanda, söhbət əsnasında Gürcüstan-Azərbaycan-Ermənistan məsləhətləşmələrə başlaması haqqında fikir mübadiləsi apardıq. Əgər Ermənistan tərəfi buna hazırdırsa, biz buna hazırıq.

O ki qaldı, ikitərəfli gündəliyimizə, əlbəttə ki, ticarət dövriyyəmizin artması bizi sevindirir. Bu ilin 9 ayında qarşılıqlı ticarət dövriyyəsi bir milyard dollara yaxınlaşıb. Əlbəttə ki, Azərbaycanın sərmayəsi ilə həyata keçirilən layihələr bizim əməkdaşlığımızı daha da gücləndirir. Azərbaycan Gürcüstana 3 milyard dollardan çox sərmayə qoyub. Bu sərmayə qarşılıqlı faydalı sərmayədir, çünki hər iki tərəfin maraqlarına cavab verir. Əlbəttə, biz bu gün gələcək enerji siyasətimizlə bağlı geniş fikir mübadiləsi apardıq.

Baş nazir də qeyd etdiyi kimi, həyata keçirilmiş layihələr artıq uğurla fəaliyyətdədir. Biz yeni layihələr haqqında düşünürük. Biz dünya bazarlarına qaz ixracatını artırmaq fikrindəyik. Bu il 22 milyard kubmetr ixracımız olacaq, gələn il daha da artacaq. Bu ilin iyul ayında Avropa Komissiyası ilə Azərbaycan arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlığa dair Memorandumda göstərilir ki, növbəti 5 ildə Azərbaycan Avropaya qaz ixracını iki dəfə artıracaq. Yəni, bizim niyyətimiz bundan ibarətdir, imkanlarımız da buna çatır. Beləliklə, biz planlaşdırırıq ki, 2027-ci ildə Azərbaycanın təkcə Avropaya qaz ixracatı 20 milyard kubmetrə çatacaq. Əlbəttə ki, bununla əlaqədar görüləcək işlər həm ikitərəfli formatda müzakirə olundu, həm də gələcək müzakirələrə ehtiyac var. Eyni zamanda, gələn il Bakı-Tbilisi-Ceyhan neft kəməri xətti ilə ixrac artırılacaq. Biz bununla bərabər hazırda istismarda olmayan Bakı-Supsa neft kəmərindən də istifadə etmək istəyirik. Bu barədə də danışmışıq. Mən bizim planlarımız haqqında cənab Baş naziri məlumatlandırdım. Buna da böyük ehtiyac və böyük potensial var.

Həyata keçiriləcək yeni layihə elektrik enerjisi ilə bağlıdır. Azərbaycan çalışır ki, öz elektrik enerjisini dünya bazarlarına ixrac etsin. Əlbəttə, təbii ki, bizim ixrac istiqamətimiz Gürcüstandan keçir. Təkcə azad edilmiş torpaqlarda 10 giqavatt gücündə bərpaolunan enerji növlərindən istifadə etmək olar. Xəzər dənizində isə bu rəqəm 157 giqavatta çatır. Yəni, bu, beynəlxalq ekspertlər tərəfindən təsdiq edilmiş rəqəmdir və bu, çox böyük rəqəmdir. Əlbəttə ki, bu enerjini istehsal etmək və ixrac etmək bizim növbəti illərdəki vəzifəmizdir. Burada Gürcüstanla Azərbaycan digər sahələrdə olduğu kimi, bu sahədə də fəal əməkdaşlıq edəcək. Yəni, bir sözlə, bölgəmizin iqtisadi potensialını artırmaq üçün çox gözəl imkanlar var - enerji resursları, nəqliyyat dəhlizləri.

Onu da bildirməliyəm ki, Gürcüstanla Azərbaycan arasında yükdaşımaların həcmi bu il 75 faiz artıbdır. Mən bildirmək istəyirəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun ötürmə qabiliyyətini biz 5 milyon tona çatdırmaq fikrindəyik. Bu məqsədlə bu il və gələn il bu layihəyə Azərbaycan tərəfindən əlavə sərmayə qoyulacaq. Artıq bütün sərmayələr hazırdır və biz bu prosesə start vermişik. Çünki dünyada Xəzər üzərindən Azərbaycan, Gürcüstan və qonşu ölkələrdən keçən nəqliyyat yollarına böyük ehtiyac var. Yeni nəqliyyat yolları həm geosiyasi vəziyyətlə bağlı, həm də bütövlükdə yol boyunca yerləşən bütün ölkələrin maraqlarına cavab verir. Ona görə Bakı-Tbilisi-Qars dəmir yolunun ötürmə qabiliyyətinin 5 milyon tona çatdırılması, eyni zamanda, Gürcüstan limanlarından istifadə edərək Orta Asiyadan və bütövlükdə Asiyadan Qərb istiqamətinə və əks istiqamətə ötürülən yüklərin həcminin artırılması artıq yeni reallıq yaradır. Biz buna hazır olmalıyıq. Mən bildirməliyəm ki, biz Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ötürmə qabiliyyətini 15 milyon tondan 25 milyon tona çatdırmaq istəyirik. Artıq bütün göstərişlər verilib və vəsait də ayrılacaq. Ona görə Gürcüstanla Azərbaycan arasında nəqliyyat sahəsində sıx koordinasiya aparılmalıdır. Çünki bizim birgə layihələrimiz eyni vaxtda tamamlanmalıdır. Tranzit ölkə olmaq üçün mütləq qonşularla yaxşı münasibətlərin olmalıdır. Çünki qonşularla bu münasibətlər olmadan heç bir ölkə etibarlı tranzit ölkəyə çevrilə bilməz. Bizim isə Gürcüstanla dostluq, qardaşlıq, tərəfdaşlıq münasibətlərimiz bu imkanları yaradır. Hazırda enerji resurslarına bütövlükdə dünyada və Avropada böyük tələbat olduğu üçün Gürcüstanla Azərbaycan da bu məsələdə bir cəbhədən hərəkət edərək, bir nöqtəyə vuraraq öz milli maraqlarını təmin edəcək. Baxın, görün, iki qardaş ölkə arasındakı əlaqələr bölgə üçün, Avropa üçün və dünya üçün nə qədər əhəmiyyətlidir.

# “Siyasi Partiyalar haqqında” yeni qanun layihəsi Azərbaycanda mövcud siyasi sistem nəzərə alınmaqla hazırlanıb

## Milli Məclisdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi ilə bağlı ictimai dinləmə keçirilib



**Dünən Milli Məclisdə parlamentdə təmsil olunan və dövlət qeydiyyatından keçmiş bir sıra siyasi partiyaların sədrləri və nümayəndələrinin iştirakı ilə ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsi ilə bağlı ictimai dinləmə keçirilib. İclasdan əvvəl Milli Məclisin sədri Sahibə Qafarova tədbirin keçirildiyi zala gəlib, ictimai müzakirələrdə iştirak edən partiya sədrləri ilə görüşüb, onlara uğurlar arzulayıb. İctimai dinləmədə Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev iştirak edib.**

Tədbiri açan parlament sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli Milli Məclisin sədri Sahibə Qafarovanın adından ictimai dinləmənin iştirakçılarını salamlayıb. Bildirib ki, Azərbaycanda son illərdə sistemli xarakter daşıyan islahatlar aparılır. Cəmiyyətin bütün sahələrini əhatə edən bu islahatlar Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi ilə həyata keçirilir. Bu islahatlar nəticəsində hakimiyyətin qolları arasında əməkdaşlıq əlaqələri möhkəmlənib, habelə iqtidar-müxalifət dialoqu başlayıb və davam etməkdədir. Altıncı çağırış Azərbaycan Respublikasının Milli Məclisində, onun komitələrinin rəhbərliyində Yeni Azərbaycan Partiyası ilə yanaşı, müxtəlif siyasi partiyaların təmsil olunması bunu bir daha təsdiqləyir.

Diqqətə çatdırılıb ki, parlamentdə təmsil olunan 11 siyasi partiya ”Siyasi partiyalar haqqında” qanun layihəsinin hazırlanması ilə bağlı Milli Məclisin sədri Sahibə Qafarovaya müraciət edib. Qeyd olunub ki, ”Siyasi partiyalar haqqında” qanun 30 il bundan əvvəl qəbul edilib. Bu müddətdə Azərbaycanda bir çox dəyişikliklər baş verib, ölkəmiz dünya səviyyəsində öz layiqli yerini tutub, Qalib Azərbaycan statusuna yüksəlib, dövlətimizin beynəlxalq münasibətlər sistemində mövqeyi möhkəmlənib. Bütün bunlar ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin ərsəyə gəlməsinə rəvac verib.

Fəzail İbrahimli bildirib ki, dövlət və vətəndaş cəmiyyəti quruculuğunda böyük nailiyyətlər əldə olunub və bu məqamlar siyasi partiyalarla bağlı qanun layihəsində öz əksini tapmalıdır. Diqqətə çatdırılıb ki, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu, İctimai birliklər və dini qurumlar, İnsan hüquqları komitələrinə qanun layihəsinin hazırlanması tapşırılıb. Qanun layihəsinin hazırlanması zamanı Avropanın qabaqcıl ölkələrinin təcrübəsi, milli-mənəvi dəyərlərin qorunub saxlanması, ölkədə mövcud olan siyasi sistem nəzərə alınıb. Həmçinin Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi ilə bağlı tövsiyələri nəzərdən keçirilib. Layihənin hazırlanması ilə əlaqədar ekspert komissiyası yaradılıb və bu komissiya tərəfindən 20 ölkənin bu sahədəki təcrübəsi öyrənilib. Bununla yanaşı, siyasi partiyalar tərəfindən daxil olan təkliflərə diqqət yetirilib. Milli Məclisin siyasi partiyalara müraciətindən sonra 47 siyasi partiyadan 250-dən çox təklif daxil olub.

Sonra Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxış edərək, Milli Məclisin sədri Sahibə Qafarovanın təşəbbüsü ilə təşkil olunmuş ictimai müzakirənin onun başçılıq etdiyi komitə tərəfindən yüksək qiymətləndirildiyini bildirib. Qeyd olunub ki, ”Siyasi partiyalar haqqında” mövcud Qanun 1992-ci ildə qəbul edilib. 1995-ci il Konstitusiyasında isə birləşmək hüququ, o cümlədən siyasi partiya yaratmaq hüququ təsbit edilib. Bununla yanaşı, bu illər ərzində bir çox Avropa ölkələrində siyasi partiyalarla bağlı qanunvericilik təkmilləşdirilib və bu sahədə olan təcrübənin Azərbaycan qanunvericilində tətbiqi zəruridir. Eyni zamanda, son 30 il ərzində Azərbaycanın müstəqil dövlətçiliyi möhkəmlənib, ərazi bütövlüyü təmin olunub. Vətən müharibəsi dövründə siyasi partiyaların sivil siyasi mübarizə mühitini nümayiş etdirmələri bütövlükdə siyasi partiyalar haqqında qanunvericiliyə yeni aspektdən baxmağı zəruri edir. Əli Hüseynli siyasi partiyalar haqqında qanunvericilikdə siyasi partiyanın anlayışı, partiyaların təsis edilməsi və ləğvinin əsasları, qeydiyyata dair tələblər, partiyanın maliyyələşməsi, dövlət tərəfindən maliyyə yardımı, ianələrlə bağlı məsələlərin göstərilməsinin vacibliyini bildirib. İclasda çıxış edən parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc qeyd edib ki, yeni qanun layihəsinin hazırlanması müstəqillik tariximizdə ilk dəfə qalib siyasi sistem formalaşdırmaq və müharibə dövründə olduğu kimi, sülh dövründə də milli birliyi qorumaq zərurətindən irəli gəlir. O, müstəqilliyin qorunması və gücləndirilməsində, xalqın siyasi iradəsinin formalaşmasında və ifadəsində, ərazi bütövlüyü uğrunda mübarizədə partiyaların xidmətlərinin danılmaz olduğunu söyləyib.

Bildirilib ki, Prezident İlham Əliyevin dövlətimizi və iqtisadi, siyasi müstəqilliyimizi gücləndirən 20 ilə yaxın siyasi rəhbərliyi dövründə yeni hakimiyyət quruculuğu və 2020-ci ildə Vətən müharibəsində parlaq Qələbədən sonra yeni ictimai-siyasi reallıq yaranıb. Həyatın bütün sahələrində köklü dəyişikliklərə nail olmaq, dövlət kimi partiyaların da proqram və konsepsiyalarının yenilənməsini zəruri edir. Komitə sədri diqqətə çatdırıb ki, təqdim edilən yeni qanun partiyaların fəaliyyətinin təkmilləşməsi və dinamik hüquqi tənzimlənməsi məqsədi daşıyır. Bu qanunla Azərbaycanın siyasi sistemi və partiyalar institutu öz inkişafının tarixi bir mərhələsinə yekin vurur. Yeni layihədə çoxpartiyalılıq demokratiyanın başlıca göstəricisi kimi təsbit olunub.

Sonra iclasda aparılan müzakirələrdə bir sıra siyasi partiya rəhbərləri və təmsilçiləri, habelə deputatlardan Bəhruz Məhərrəmov, Hikmət Məmmədov, Erkin Qədirli, Sahib Alıyev çıxış edərək qanun layihəsi ilə bağlı fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

# “Bu, Azərbaycanın siyasi sistemində bir ilkdir”



””Siyasi partiyalar haqqında” qanun layihəsinin müəllifləri həm də siyasi partiyalardır. Bununla bağlı Milli Məclisin sədri Sahibə Qafarovaya müraciət etmişik və o da təklifimizə dəstək olub. Bu kollektiv düşüncənin məhsuludur. Burada konkret olaraq bir nəfərin müəllifliyi yoxdur”. SİA xəbər verir ki, bu sözləri ”Siyasi partiyalar haqqında” qanun layihəsinin müzakirəsi zamanı deputat Fəzail Ağamalı deyib. Onun sözlərinə görə, Azərbaycan müstəqillik qazandıqdan sonra ilk dəfədir ki, belə ciddi formatda dövlət və siyasi sistem üçün qanun layihəsini birgə müzakirə edir: ”Bu Azərbaycanın siyasi sistemində bir ilkdir. Bu şəraiti yaratdığına görə sədr Sahibə Qafarovaya təşəkkür edirəm”.

Fəzail Ağamalı sözlərinə belə davam edib: ”Hər bir qanun layihəsini zəruri edən amillər və şərtlər var. Azərbaycanda 1990-cı illərdən fərqli olaraq siyasi partiyaların siyasi sistemdə fəallığı kifayət qədər artıb. Bu fəallıq qüvvədə olan qanunvericiliklə adekvat deyil. Ölkədə aparılan siyasi islahatların tərkib hissəsi kimi partiyaların yeni proseslərdə daha fəal iştirakı və Azərbaycanda yeni reallığın iştirakı zəruri amillərdir.”

***Ayşən Vəli***

# “Hakimiyyətin iradəsi də odur ki, siyasi sistem sağlamlaşsın”



“Məlumdur ki, Azərbaycanda islahatların yeni mərhələsi 2018-ci ilin Prezident seçkilərindən sonra başlayıb. Bu gün də davam edən islahatlar həm konseptual, həm də struktur xarakteri daşımaqla bütün sahələri, o cümlədən hakimiyyətin hər üç qolunu əhatələməkdədir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib. Onun sözlərinə görə, 2020-ci ildə bütün siyasi qüvvələrin iştirak etdiyi növbədənkənar seçkilər keçirməklə, cənab İlham Əliyevin təşəbbüsü və tövsiyəsi ilə digər partiyaların nümayəndələri Milli Məclisin sədarətində və komitələrin rəhbərliyində təmsil olunması dövlət siyasi islahatlarda maraqlı olduğunu əməli formada göstərdi: ”Amma mövcud qanunvericilik siyasi partiyaların fəaliyyəti, o cümlədən partiyalararası dialoqda tam mənada sağlam mühit yaratmaq üçün yetərli deyildi. 1995-ci ildən etibarən 70-ə yaxın düzəlişin istənilən nəticəni verməməsi məzmunca yeni normativ hüquqi aktın qəbul edilməsini zərurətə çevirmişdi. Əslində, Prezident İlham Əliyevin özü də VI çağırış Milli Məclisin ilk iclasında bu zərurətin anonsunu vermiş və Azərbaycanda çoxpartiyalı sistemin daha da möhkəm əsaslar üzərində qurulması məqsədilə qanunvericilik sahəsində təkmilləşdirilmə vacibdir”. Bəhruz Məhərrəmov sözlərinə belə davam edib: ”Bu gün siyasi partiya və dərnəyin yaradılması arasında fərqi tapmaq çox çətindir. Siyasi partiyanı yaratmaq üçün heç bir ciddi meyar tətbiq olunmur. Siyasi partiya ölkənin siyasi həyatında, vətəndaşların siyasi iradəsinin formalaşdırılmasında və ifadə olunmasında iştirak etmək niyyəti ilə yaradılmalıdır.

Xeyli sayda misal göstərmək olar, bu illər ərzində mövcud vəziyyət ciddi sui-istifadələrə yol açıb, siyasi partiyalar marağı olan ayrı-ayrı insanların şəxsi alətinə çevrilib. Nəticə etibarı ilə də Azərbaycan vətəndaşları tərəfindən ölkənin siyasi həyatında və vətəndaşların siyasi iradəsinin ifadə olunmasında iştirak etmək hüququ faktiki olaraq formal bir meyara çevrilir. Məsələn, hər hansı partiya liderinin şəxsi məqsədlər zəminində verdiyi səbatsız qərarla seçkidən kənar qalan minlərlə vətəndaş özünün təməl siyasi hüquqlarından biri olan seçib-seçilməkdən məhrum olurdu. Bu, öz növbəsində konstitusiyanın preambulasında ifadə olunan demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq kimi ali niyyətlərlə daban-dabana zidd durum yaradır.

İndi ortada maraqlı bir layihə var, beynəlxalq təcrübəyə əsaslanıb, 30-dan çox siyasi partiya rəyini verib, təkmilləşdirmə prosesi gedir. Amma, aşkarlıq şəraitində müzakirələrin yenicə başlamasına, layihə mətninin bütün ağlabatan və səmərəli təkliflərə açıq olmasına baxmayaraq, bütün dayaqlarını tam itirmiş dərnək tipli qruplaşmalar artıq proseslə bağlı pozuculuq fəaliyyətinin şahidiyik. Sirr deyil ki, əsas vurğunu da vururlar 5.1.-ci maddəyə, siyasi partiyanın Azərbaycan ərazisində son 20 il daimi yaşayan azı 200 vətəndaşı tərəfindən təsis edilməsinə və 6.1. maddədəki dövlət qeydiyyatına alınması üçün siyasi partiyanın azı 10000 üzvü olması tələbinə. Bu tələblər bəzilərini niyə narahat edir? Unutmaq olmaz ki, siyasi partiya dövlət idarəçiliyinə gedən yoldur, vətəndaşın iradə ifadəsinin mexanizmlərindən biridir.

Bəzi radikallar iddia edir ki, hakimiyyət real müxalifəti sıradan çıxarmaq istəyir, yaxud, hakimiyyət rəqabətsizlik istəyir - yaxşı sədrindən və 3-5 qohumundan ibarət partiyalar hakimiyyətə rəqibdir yoxsa, 50 min, 100 min üzvü olan partiya? Yəni məntiqlə danışmaq lazımdır. Yaxud bəziləri iddia edir ki, hakimiyyət üzvlərimizi tanımaq istəyir. Bunlar Leninin təbliğatından çıxa bilməyiblər, o bolşeviklərin gizli mübarizə metodları hələ də beynilərindədir. Axı sən xüsusi xidmət orqanlarının agentura şəbəkəsini idarə etmirsən ki, üzvləri məxfi saxlayasan, bu siyasi partiyadır və partiyanın da bir mübarizə üsulu var, o da seçkilər. Bunları qorxudan səbəb çox sadədir, islahatların dərinləşməsi və bu yolla siyasi sistemdə sağlamlaşma üzvləri daha çox qeyri-real profillərdən, eyni IP-dən idarə edilən xəyali sosial şəbəkə trollarından ibarət olan bu dərnəklərin əsl simasını və potensialını üzə çıxaracaq.

Hakimiyyətin iradəsi də odur ki, siyasi sistem sağlamlaşsın. İradə ifadəsi kimi də. ”Normativ hüquqi aktlar haqqında” Konstitusiya qanunun 9-cu maddəsinə müvafiq olaraq normayaratma orqanlarının fəaliyyətində aşkarlığın təmin olunması məqsədilə ”Siyasi partiyalar haqqında” qanunun layihəsi parlamentin internet informasiya ehtiyatında yerləşdirilib, normativ hüquqi aktın layihəsi açıq formada ictimai və peşəkar müzakirəyə çıxarılıb. Təbii ki, Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin birinci hissəsini və normayaratma fəaliyyətinin əsas prinsiplərini rəhbər tutmaqla, sağlam və qərəzsiz ictimai fikir mübadilələri qanunun daha da cilalanmasına, daha da təkmilləşdirilməsinə səbəb olacaq”.

***Ayşən Vəli***

# Vətən müharibəsinin 29-cu günü: Qubadlı şəhəri işğaldan azad olundu

## İlham Əliyev: "Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat-bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim Qələbəmizi şərtləndirdi"




**"Bu gün Azərbaycan Ordusu Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 25 oktyabr 2020-ci il tarixində özünün rəsmi "Twitter" səhifəsində bildirib.Artıq müharibənin 29-cu gününü yaşayırdıq. "Bir aya yaxındır ki, müharibə gedir. Bu müddət ərzində ölkəmiz döyüş meydanında böyük uğurlar əldə edib.**

Hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Gün ərzində müntəzəm olaraq mənə döyüş bölgələrində aparılan əməliyyatlar haqqında məlumat verilir və mənim tərəfimdən müvafiq göstərişlər verilir. DeməK olar ki, hər saat müxtəlif bölgələrdə baş verən hadisələrlə bağlı məlumat daxil olur, həm Müdafiə Nazirliyi və digər qurumlar məni məlumatlandırırlar. Hər gün operativ müşavirələr keçirilir. Bir sözlə, vəziyyət tam nəzarət altındadır. İşğal olunmuş torpaqlarımızın bir hissəsi bu müddət ərzində işğalçılardan azad edilibdir, 100-dən çox yaşayış məntəqəsi - şəhərlər, kəndlər işğalçılardan azad edilibdir. Azad edilmiş şəhər və kəndlərimizdə artıq Azərbaycan bayrağı ucaldılıbdır". Bu fikirləri həmin gün - oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirədə çıxışı zamanı bildirib.

### "HAQQ-ƏDALƏT BİZİM TƏRƏFİMİZDƏDİR, BEYNƏLXALQ HÜQUQ BİZİM TƏRƏFİMİZDƏDİR, TARİXİ ƏDALƏT BİZİM TƏRƏFİMİZDƏDİR"

44 günlük Vətən müharibəsində Azərbaycan qələbə qazanaraq Zəfər tarixini əbədiləşdirdi. Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoyuldu. İki il bundan əvvəl şanlı tariximizin yeni səhifələri yazıldı. Qubadlı şəhəri işğaldan azad olundu. Qubadlılılar artıq ikinci dəfə 25 oktyabrı tarixi qələbə olaraq qeyd edir."Azərbaycan Ordusu böyük rəşadət göstərir, peşəkarlıq göstərir. Biz 1990-cı illərin əvvəllərində bir neçə il ərzində torpaqlarımızı itirmişik. Bu gün hələ bir ay keçməyib artıq Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Qubadlı rayonlarının bir hissəsi işğalçılardan azad edilib. Yenə də deyirəm, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Düzdür, bəzi istiqamətlərdə ciddi düzəlişlərə ehtiyac var, amma biz bütövlükdə qarşımızda duran hədəfə çatırıq. Hər gün növbəti gün üçün döyüş tapşırığı verilir. Mən bu döyüş tapşırığını təsdiqləyirəm və demək olar ki, bu tapşırığın böyük hissəsi icra edilir.Mən əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Biz öz torpağımızda vuruşuruq. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, tarixi ədalət bizim tərəfimizdədir. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik, işğalçıları öz torpaqlarımızdan qovmalıyıq, ölkəmizin suverenliyini təmin etməliyik. Əminəm ki, biz buna nail olacağıq. Amma buna nail olmaq üçün əlbəttə ki, hər bir vəzifəli şəxsdən böyük məsuliyyət tələb olunur, cəsarət tələb olunur və nizam-intizam tələb olunur" - deyə Prezident bildirib.

Xatırladaq ki, Qubadlı rayonu 31 avqust 1993-cü il tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İşğal nəticəsində rayondan 29997 nəfər məcburi köçkün respublikanın müxtəlif yaşayış məntəqələrində müvəqqəti yerləşdirilmişdir. 94 yaşayış məntəqəsi, 7278 fərdi yaşayış evi, 64 inzibati bina, 148 sosial obyekti, 161 mədəniyyət obyekti, 7 məscid, 16 körpü dağıdılmış və yararsız vəziyyətə salınmışdır. 1080 ədəd kənd təsərrüfatı obyekti, 650 km avtomobil yolu, 2 su anbarı, 150 km magistral su xətləri, 4830 km elektrik xətləri, 165 km magistral qaz boru xətti, 9 tikinti idarəsi, 4 yol idarəsi, 18 ədəd dəyirman, 4 ədəd su nasos stansiyası, 120 ədəd elektrik yarımstansiyası və transformatorlar tamamilə dağıdılmışdır.

### QUBADLI ŞƏHƏRİNİN AZAD EDİLMƏSİ BÖYÜK QƏLƏBƏNİ YAXINLAŞDIRDI

Azərbaycanın cənub qərbində yerləşən və faydalı qazıntı ehtiyatlara malik Qubadlı ərazisindən Bərgüşad, Həkəri və onların qolları (Ağa çayı, Kiçik Həkəri, Meydandərəsi və s. axır. İşğaldan öncə Qubadlıda 13160 hektar meşə sahəsi olub. Rayonun ərazisi təbii dərman bitkiləri ilə də zəngindir. Qubadlı rayonunun Hacılı kəndində mişar daşı yatağı, Bərgüşad çayının sol sahilində yaşəm yatağı, Əliquluuşağı, Qundanlı, Muradxanlı və Başarat kəndlərində mərmərləşmiş əhəng daşı yataqları, o cümlədən Mollabürhan kəndinin cənubunda tuf daş yatağı, Xanlıq kəndində qum-gil yatağı, Eyvazlı kəndində əqiq yatağı mövcuddur. Rəsmi İrəvan Xanlıq kəndində qanunsuz məskunlaşma aparmış, xaricdən gətirilən ermənilər burada qanunsuz yollarla yerləşdirilmişdilər. Cenevrə konvensiyalarına görə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparan ölkə cinayət törətmiş olur. Xaricdən gələn ermənilər üçün xaricdə yaşayan ermənilərin pulu ilə Xanlıqda qəsəbə salınmışdır. 25 oktyabr tarixi 44 günlük müharibənin gedişatında əhəmiyyətli dönüş nöqtəsi oldu. Qubadlının azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Şəhərdə ermənilər güclü istehkamlar qurmuşdular. Yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi.

Qubadlını azad etmək üçün, ilk növbədə, yüksəkliklər götürülməli idi. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu bu peşəkarlığı, fədakarlığı göstərib.Qubadlı şəhərinin azad edilməsi böyük Qələbəni yaxınlaşdırdı. 2020-ci il noyabrın 26-da "Qubadlının azad olunmasına görə" medalı təsis edildi. Azərbaycan Respublikasının Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 15209 hərbi qulluqçusu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Qubadlının azad olunmasına görə medalı ilə təltif edilmişdir.

### İNKİŞAF DÖVRÜNÜ YAŞAYAN QUBADLIDA YENİ HƏYAT BAŞLAYIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın bu əraziyə səfərləri çərivəsində Qubadlıda yeni həyatın canlanması məqsədi ilə böyük layihələrin reallaşmasına istiqamətlənən təməlqoyma mərasimləri həyata keçirilir. Yeni açılışlar olur. "Qubadlı" yarımstansiyasının açılışı olub. Bu günə qədər Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl kimi ərazilərdən sonra Qubadlıda yeni yarımstansiya tikilib. Beləliklə, işğaldan azad edilmiş ərazilərin 80 faizi Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, elektrik xətləri üzərindəki optik kabellər vasitəsilə yarımstansiya və rayonlardakı lazımi strukturlar internetlə təmin edilib. İşğaldan azad edilən digər rayonlardakı yarımstansiyalarda olduğu kimi, Qubadlıda da Dördüncü Sənaye İnqilabına uyğun olaraq intellektual enerjisistem şəbəkəsi konsepsiyası həyata keçirilərək müasir, dayanıqlı, tam rəqəmsallaşdırılmış yarımstansiya yaradılıb.

Azərbaycanın iqtisadi gücü işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanmasına imkan verir. Füzulidə Beynəlxalq hava limanından sonra Zəngilan Beynəlxalq Hava Limanı istifadəyə verildi. Bu və ya digər amillər Azərbaycanın gücünün göstəricisidir. Hərb meydanında sözünü deyən Azərbaycan bu gün quruculuq meydanında da imza atdığı lahiyələri ilə sözünü deyir. Yaxın gələcəkdə Qubadlıda məktəblər, xəstəxanalar tikiləcək, yeni yaşayış binaları qubadlıların ixtiyarına veriləcək.Cari ilin oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinin Baş planı ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyublar.

### ÇOX KEÇMƏZ Kİ, QUBADLI ƏZƏLİ SAKİNLƏRİNİ QOYNUNA ALAR

Qeyd edək ki, Qubadlı şəhəri beynəlxalq hava limanlarının tikildiyi Zəngilan və Laçın rayonları arasında yerləşməklə coğrafi mövqeyi və logistik imkanları baxımından strateji əhəmiyyətə malikdir. Baş planın əsasında insanların yenidən təbiətlə qovuşması, komfortlu qonşuluq ərazilərinin təşkili, canlı rayon mərkəzi və sakit hərəkət strategiyaları dayanır. Qubadlının təbii imkanları nəzərə alınaraq şəhər parkları, meşə-parklar, çaykənarı bulvar, həmçinin ictimai bağlar şəhərin əsas simasını təşkil edəcək. Burada yerləşəcək yaşayış məkanlarının ərazi planlaşdırılmasında yaşıl sahələr, piyada əlçatanlığı nəzərə alınmış, çoxfunksiyalı zonaların, ortamərtəbəli və azmərtəbəli binaların, həmçinin həyətyanı sahəsi olan fərdi evlər üçün zonaların yerləri müəyyənləşdirilib. Baş planda şəhərin gündəlik həyat dinamikasını təmin etmək üçün müxtəlif zonalar arasında sıx bağlantıların təşkilinə xüsusi önəm verilib və bu məqsədlə əsas mərkəzi hissədə su kanalı boyunca piyada küçəsi, istirahət yerləri və interaktiv məkanlar nəzərdə tutulub. Baş plana əsasən, şəhərin mərkəzi hissəsində evləri, iş yerlərini, istirahət, əyləncə və mədəni fəaliyyəti, sosial obyektləri bir mühitdə cəmləyən əlverişli şəraitin yaradılması planlaşdırılır. Şəhər üzrə tikinti sıxlığı mərkəzdən kənarlara doğru azalacaq. Orta mərtəbəli çoxmənzilli yaşayış binaları və ictimai tikililər mərkəzi hissədə, daha kənarlara doğru isə azmərtəbəli binalar və həyətyanı sahələrə malik fərdi evlər yerləşdiriləcək.

Şəhərin memarlıq simasının formalaşmasında müasir və ənənəvi elementlərin vəhdətindən istifadə ediləcək, yaşıl şəhər obrazı yaradılacaq.Qubadlı İşğal və Zəfər muzeyləri kompleksi İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntılardan ibarət Memorial Parkdan ibarət olacaq. Kompleks təxminən, 3 hektar ərazini əhatə edəcək. Bu ərazi çox strateji mövqedədir, əsas yol şəbəkəsinə və nəqliyyat qovşağına yaxındır. Həmçinin, Həkəri çayını əhatə edən təbii yaşıllıq zolağının bir hissəsi kompleksin ərazisinin şimal hissəsini təşkil edəcək, bu da öz növbəsində kompleksin heyrətamiz təbii mühitdə inşasına imkan yaradacaq. Çayın bir hissəsi kompleksin ərazisindən keçdiyi üçün Zəfər Muzeyi və İşğal Muzeyinin gözəl mənzərəli körpü vasitəsilə simvolik olaraq bir-biri ilə əlaqələndirilməsi nəzərdə tutulur.

Qubadlıda görülən işlər sırasında Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışını da bildirməliyik. Azərbaycanın Ermənistanla dövlət sərhədinin Qubadlı və Laçın rayonları ərazisindən keçən hissəsinin mühafizəsini təmin edən Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin ərazisi 25 hektardır. Kompleksin döyüş texnikası parkında helikopterlər, "HAROP", "Quzğun" və "Qırğı" zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar və idarə olunan raketlər, 120 və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri mövcuddur. Hərbi hissə kompleksində qərargah binası, zabit-gizir və əsgər yataqxanaları, şəxsi heyət üçün lazımi şəraitlə təmin edilmiş iş otaqları, yeməkxana, yaşayış binaları, anbarlar və digər zəruri infrastruktur yaradılıb. Bu gün Qubadlının işğaldan azad olunmasından iki il ötür. Ötən il 44 günlük Vətən müharibəsində Azərbaycan tarixi günlərini yaşadı. Bu gün artıq Qubadlı azad nəfəs alır.

Cənab Prezidentin bildirdiyi kimi, "Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat - bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim Qələbəmizi şərtləndirdi"- deyə Prezidentimiz bildirmişdir. İşğaldan azad olunan Qubadlıda yeni bir həyat başlayır, abad və laləzarlığa qərq olmuş müasir Qubadlı çox keçməz ki, əzəli sakinlərini qoynuna alar.

***Zümrüd BAYRAMOVA***

TƏRS BAXIŞ+ÖZƏL

# Bütöv Azərbaycanın ayaq səsləri!

## Bu əzmi Səttarxan, Xiyabani, Pişəvəri kimi tarixi şəxsiyyətlərin nəvə-nəticələri, kötücələri yaşadır



**Daim ermənilər özlərinə "qohum xalq" adlandıran fars şovinistləri son məlum proseslər çərçivəsində bir az da irəliyə gedərək Azərbaycan dövlətinə və xalqına qarşı təhqiredici, əsassız və heç bir sübutu olmayan iddialarla çıxış edir, öz təbirlərincə "hücum diplomatiyası məntiqində" sərsəmləyirlər. Əslində isə biz bu kimi halları nəinki indilərdə, ümumiyyətlə, son dövrlərdə dəfələrlə (!) müşahidə etmişik.**

SEPAH generalları və Tehran rejiminin parlamentindəki şovinist deputatları öz kirli xislətlərini hər vəchlə regiondakı sabitliyi pozmaq cəhdləri ilə yürütməyə çalışırlar

Bu gün müstəqil Azərbaycan Respublikasını həyasızcasına "Bakı respublikası" adlandıran SEPAH generalları və Tehran rejiminin parlamentindəki şovinist deputatları öz kirli xislətlərini hər vəchlə regiondakı sabitliyi pozmaq cəhdləri ilə yürütməyə çalışırlar. İstər 44 günlük Vətən müharibəsindən əvvəl, istərsə də sonrakı dövrlərdə Ermənistanın işğalçılıq siyasətinə müxtəlif yönlü dəstəklərini nümayiş etdirən fars mollakratiyasının təmsilçiləri bu gün daha azğınlaşdıqlarını bəyanatları ilə isbatlamaqdadırlar. Dildə "müsəlmançılıq" əməldə isə şeytanpərəstlik sərgiləyən başıəmmamələr bir reallığı unudurlar ki, artıq Cənubi Qafqaz regionunda gerçəkliklər tamamilə dəyişilib və "İran" adlı bir ölkə əsla həmin gerçəkliklərə müdaxilə etmək gücündə və qüdrətində deyil və olmayacaq da. Və bu gün Təbrizdə, Zəncanda, Ərdəbildə, Rəştdə, Sulduzda, Urmiyədə və s. tarixi Azərbaycan vilayətlərində öz milli hüquq və azadlıqları uğrunda mübarizə aparan 35 milyonluq azərbaycanlı ayaqdadır. Nə həbslər, nə təqiblər, nə də ölüm hədələri onların gözlərini qorxutmur və onlar yaxşı bilirlər ki, zorla ayrılan Araz bir gün mütləq birləşəcək!




### İslam dini pərdəsi altında qurduqları "respublikalarının" dayaqlarının laxladığını da çox yaxşı dərk edirlər

Ən əsası isə, Azərbaycanın artan nüfuzu İrandakı molla rejiminin yuxusunu ərşə çəkib, onlar nə gecə, nə də gündüz yata bilmir, İslam dini pərdəsi altında qurduqları "respublikalarının" dayaqlarının laxladığını da çox yaxşı dərk edirlər. Nə 35 milyonluq azərbaycanlıları rəsmi dövlət qəzet və jurnallarında, televiziya kanallarında karikaturalı və ələsalma təhqir metodları, nə də digər cəhdlər işləmədi, puç oldu!

Təkcə bir fakta diqqət yetirək. İzə şəhərindən İran parlamentinə təyin olunmuş Hidayətullah Xadimi azərbaycanlıları, bütövlükdə türkləri təhqir edib. O, Təbrizin "Səhənd" stadionunda Azərbaycan Respublikasının bayrağını qaldıranları "tula" adlandırıb. "Ölkənin çörəyini yeyib stadionda Türkiyə və sionistlərin muzdlu tulaları kimi bağırıb iranlıları, böyük Kiri təhqir edənlər bilməlidirlər ki, onların Oğuz babaları çöllərdə bir tikə çörəyə görə talan və qətliam törətdikləri vaxtdan 2 min il qabaq Kir və iranlılar yer kürəsinin 50 fazinə hökm edirdilər", deyə, parlament nümayəndəsi özünün tvitter hesabında yazıb. Belə faktlar isə minlərlədir!


Tweets Tweets & replies Media Likes

Hedayatkhademi @Hedayatkha... · 9m
#توله_مزدوران_ترکیه و صهیونیست که نان کشور را میخورند ولی در #ورزشگاه_فوتبال برای اربابانشان جیغ میزنند و به تمام مردم #ایران_بزرگ و #کوروش_بزرگ توهین میکنند بدانند که۱،-دو هزار سال قبل از زمانی که اجداد #قبایل_اغوز در بیابان های برهوت به کشتار و غارت همدیگر برای لقمه ای نان

5 2 8

Hedayatkhademi @Hedayatkha... · 9m
مشغول بودند #کورش_کبیر و حکومت #ایرانیان بر۵۰ درصد جمعیت کره زمین حکومت میکردند.۲-شیران شجاع و متفکر مستقر در #اردبیل هم با تشکیل #حکومت_صفوفه باعث فروپاشی حکومت قبایل اغوز #عثمانی شد و #نادرشاه تکمیلش کرد.۳-شما اندک جز مردم شجاع #تبریز نیستید.۴-انتظاره #نمایندگان محترم #تبریز!!



Torpaqlarımızın işğala məruz qaldığı 30 il ərzində daşı-kərpici belə qənimət bilən ermənilərlə əlbir olan fars rejiminin anti-türk tacirləri hər şeyi daşıdılar, hətta məscidlərimizin, qəbirlərimizin təhqirlərə, dağıdılmalarına belə erməni nəzərləri ilə baxdılar.

### Tehranın 13 terror təşkilatı ilə yaxından əməkdaşlıq edən Ermənistanla eyni yastığa baş qoyması kimsəyə təəccüblü görünməli deyil

Üstəlik, bu torpaqlarımız qanunsuz narkoticarət və s. al-ver məqsədlərinin mərkəzinə çevrildi, Tehran respublikası İrəvandakı işğalçılara nəfəs borusu açmağı da unutmadı. Bu, açıq-aşkar erməni terroruna dəstəyin sübutu idi və əbəs deyil ki, artıq "İran İslam Respublikası" adlandırılan quruluş beynəlxalq aləm tərəfindən terroru dəstəkləyən ölkələr sırasında ilkliyi təşkil edənlərdəndir.

Daha dəqiq desək, məhz bu kontekstdə Tehranın 13 terror təşkilatı ilə yaxından əməkdaşlıq edən Ermənistanla eyni yastığa baş qoyması kimsəyə təəccüblü görünməli deyil. Məsələn, bu gün həm İrəvan, həm də Tehran uzun illərdən bəridir ki, Suriyadakı qanlı və qəddar Əsəd rejimini, Hizbullahı, Həması və s. Yaxın Şərq terror qruplarını açıq qaydada dəstəkləyirlər. Təkcə Livandakı ermənilərin, Suriyadakı ermənilərin Hizbullahla eyni cərgədə terror aksiyalarında iştiraklarını göstərsək bu çirkab suyun eyni çuxura axdığının şahidləri olarıq.

Bir neçə gün əvvəl Qafanda bəh-bəhlə Tehran rejiminin konsulluğunu açan fars şovinistləri indi də Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Təbrizdə konsulluq açmaq istəyinə müsbət cavab verməklə nə qədər azğın biri olduqlarını nümayiş etdirməkdədirlər. Ancaq mollakratlar unudurlar ki, Azərbaycan Respublikası öz konsulluğunu Təbriz şəhərində açılmasına çalışarkən onlar buna maneələr yaratmağa cəhd göstərdilər. Və belə olan halda ermənilərin konsulluğunun açılması ilə vəziyyəti gərginləşdirməyə çalışan bu ünsürlər bilməlidirlər ki, qədim Azərbaycan şəhərində buna imkan verməyəcək azərbaycanlıların sayı milyonlarladır!

### Bu gün Şərqi və Qərbi

### Zəngəzur dəhlizinin bir araya gətirilərək regiona yeni nəfəs verməsi imkanlarına qarşı çıxan fars mollakratiyası hürkür və xoflanır

Və ən əsası, Türkiyə ilə Azərbaycanın bütün Türk dünyasını birləşdirmək və inkişaf etdirmək istiqamətində atdığı addımlar, bu birliyə qarşı çıxan və ya onа qısqanclıqla yanaşan qüvvələrin birmənalı məğlubiyyəti ilə nəticələnək. Çünki bundan sonra Tehran rejiminin hər hansı səmimiyyətinə, "qardaş Azərbaycan" ifadəsinə inanmaq qeyri-mümkündür və biz bunu 44 günlük müharibə zamanında da gördük. Gördük ki, məhz bu rejim Azərbaycan qoşunlarının Araz boyu istiqamətdə irəliləməsinə maneələr törətdi. Müharibədən sonra isə Azərbaycanla sərhəddə müxtəlif hərbi təlimlər keçirdi, bu gün də keçirir, üstəlik həmin təlimlərini Türkiyə sərhədlərinə yaxın ərazilərdə də davam etdirir (?!)

Bu gün Şərqi və Qərbi Zəngəzur dəhlizinin bir araya gətirilərək regiona yeni nəfəs verməsi imkanlarına qarşı çıxan fars mollakratiyası hürkür və xoflanır ki, Cənubi Azərbaycanda milli azadlıq hərəkatı get-gedə daha çox vüsət alır. Zəngəzur dəhlizi isə Turan yolu olaraq nəhəng Türk dünyasını birləşdirmək əzmindədir. Bu əzmi isə Səttarxan, Xiyabani, Pişəvəri kimi tarixi şəxsiyyətlərin nəvə-nəticələri, kötücələri yaşadır. Onlar bütöv Azərbaycanın ayaq səslərindən ruhlanırlar!

***Rövşən RƏSULOV***

# Həmyerlilərimiz Fransanın petisiya saytında müraciət yerləşdirib




Bir qrup həmyerlimiz Fransanın ölkəmizə qarşı sanksiyalar tətbiq etmək təşəbbüsü ilə bağlı cəmiyyətə çağırış edib. SİA xəbər verir ki, fərqli şəhər və bölgələri təmsil edən vətəndaşlarımız olan Mesopinions.com Fransa petisiya saytında Fransa Senatına və xalqına müraciət yerləşdirib.

"Fransa Senatının üzvləri ölkəmizə qarşı ittihamlar irəli sürüblər və bir sıra qadağaların tətbiqi üçün hazırlanmış qətnamə layihəsini 15 noyabr tarixində müzakirəyə çıxaracaqlar. Bu sənəddə Azərbaycanın ermənilərə qarşı "kütləvi cinayətlər" törətdiyi iddia edilir, erməni köçkünlərinin öz torpaqlarına qayıtmaları, Avropa ölkələrinə neft və qazın idxalına qadağaların qoyulması və digər məsələlər qeyd edilib. Bütün bu ittiham və qadağalara cavab olaraq biz petisiya yaratdıq və hər kəsi onu imzalamağa çağırırıq! Məhz indi bizim bir xalq kimi birləşməyimizin vaxtıdır! Biz öz gücümüzü, birliyimizi, nümayiş etdirməliyik! 30 il ərzində ermənilərin bizi elə öz torpaqlarımızda sıxmaqlarına dözmüşük! Atrıq bizim igid oğullarımız həmin torpaqları düşmən işğalından azad ediblər. İndi isə şəhidlərin qanının yerdə qalmasına imkan verməməliyik, bizə qarşı bu cür ittihamlara birlikdə cavab vermək üçün əlimizdən gələni etməliyik!".

Petisiyaya qoşulmaq üçün aşağıdakı linkdən keçid edə bilərsiniz: //www.mesopinions.com/petition/politique/appel-nom-peuple-azerbaidjanais-senat-peuple/189012?fbclid=IwAR3JFlLut4L-1Ek4WdTtjQ1fq4l42c0FEcc1NFqfc0ZuSZl6notulCA77WI

# YAP 30 il ərzində şərəfli yol keçib!

## Bərdə rayonunda Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümünə həsr edilmiş tədbir keçirilib







Oktyabrın 24-də Yeni Azərbaycan Partiyası (YAP) Bərdə rayon təşkilatı partiyanın yaradılmasının 30-cu ildönümünə həsr edilmiş tədbir keçirib. Öncə tədbir iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə tər güllər düzərək xatirəsinə ehtiramlarını bildiriblər. Bərdə Şəhidlər Xiyabanında torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin məzarları və Vətən müharibəsi dövründə Ermənistan ordusunun Bərdəyə atdığı smerc tipli raket nəticəsində həlak olmuş mülki şəhidlərin xatirəsinə yaradılmış guşə ziyarət olunub, önünə tər güllər düzülərək ehtiramla yad edilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Konfransda ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr edilmiş videoçarx nümayiş olunub. Şəhər 3 saylı tam orta məktəbin şagirdləri "Yeni Azərbaycan Partiyasıdır!" şeiri ilə konfrans iştirakçılarını salamlayıb.

YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya xalqımızın ümummilli lideri Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının 30 il ərzində olduqca şərəfli yol keçdiyini, ümumxalq partiyasına çevrildiyini diqqətə çatdırıb. Fəqət Şadlinskaya bildirib ki, ümummilli lider Heydər Əliyevin parlaq ideyaları əsasında xalqımızın və dövlətimiz bu gün özünün ən qüdrətli dövrünü yaşaması Yeni Azərbaycan Partiyasının ali məqsədlərini uğurla həyata keçirməsinin ən gözəl təzahürüdür.

Konfransda YAP İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Tahir Mirkişili çıxış edərək bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan YAP-ın 30 illik tarixi zəngin və şərəfli inkişaf yoludur. Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası bu gün cənab İlham Əliyevin Sədrliyi ilə xalqımızı uğurlara, qələbələrə aparan yolun bələdçisi və ən etibarl, inamlı siyasi istinadgah yeridir.

YAP İdarə Heyətinin üzvü Asif Əsgərli çıxışında Heydər Əliyev ideyalarının böyük zəfərlərə yol açdığını söyləyib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tarixi nailiyyətlər qazandığını, möhtəşəm Qələbəyə imza atmaqla tarix yazdığını söyləyib. A.Əsgərli Yeni Azərbaycan Partiyasının bundan sonra da ardıcıl uğurlar qazanacağına əminliyini ifadə edib.

Milli Məclisin deputatı Fatma Yıldırım bildirib ki, Yeni Azərbaycan Partiyasının qələbələr partiyası olduğunu söyləyib. O bildirib ki, Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə edilən qələbə ilə özünün ən böyük məramını gerçəkləşdirdi, ölkəmizin ərazi bütövlüyünü təmin etdi.

Tədbirdə çıxış edən "Azərbaycan Bayrağı" ordenli şəhid Xudayar Yusifzadənin anası Radə Qurbanova bildirib ki, torpaqlarımızın işğaldan azad edilməsi Yeni Azərbaycan Partiyasının uğurlu siyasi fəaliyyətinin əsas nəticəsidir: "Bu gün biz YAP üzvləri ilə bir ailə kimiyik. Bərdədə şəhid analarından bir qrupu Yeni Azərbaycan Partiyasının yeni üzvüdür və biz də üzv olmaq üçün müraciət etmişik. Şəhid oğullarımızın qanını yerdə qoymayan və bizi əsl böyük Qələbəyə aparan Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Sədr olduğu bir partiyanın üzvü olmaq bizim üçün də şərəfdir".

YAP Bərdə rayon təşkilatının ilk üzvü Aydın Qasımov çıxışında bildirib ki, ulu öndər Heydər Əliyev hakimiyyətə Qayıdışı ilə Azərbaycana sabitlik, dirçəliş və fasiləsiz inkişaf gətirdi. Bu gün həmin inkişaf strategiyası Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin uğurlu siyasətində öz bəhrələrini verir. Ölkəmiz regionda güc amilinə, dünya birliyində söz sahibinə çevrilib.

Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev bildirib ki, bu gün sürətlə inkişaf edən müstəqil dövlətimiz Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin uğurlu siyasəti ilə regionun lider dövlətinə və dünyada söz sahibinə çevrilib. Xalqımız öz Liderinə inanır, onu dəstəkləyir və onun ətrafında sıx birləşib.

Sonra partiyanın və rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup şəxs fəxri fərmanla təltif edilib. Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul edilmiş şəxslərə üzvlük vəsiqələri təqdim edilib.

# "Aksiyaların keçirilməsi bir növ şoudur"




**Azərbaycan dövləti daim öz xalqının həyat şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görüb və görməyə davam edir. Ölkə başçısı İlham Əliyev millətin həyat şəraitinin yaxşılaşdırılması üçün bir çox layihələrə imza atmış, bir çox proqramlar tərtib edib. Lakin buna baxmayaraq dövlətimizin tərkibində yaşayan bəzi müxalif düşüncəli insanlar yenə öz əməllərindən geri qalmır, narazılıqlar edirlər. Dövlət əleyhinə şüarlar səsləndirir, aksiyalar keçirirlər.**

**SİA olaraq şəhər sakinlərinin fikirlərini öyrəndik:**

**Şəhər sakini Hafiz Bəşirov:** "Düşünürəm ki, bu cür aksiyaların təşkil edilməsi



düzgün deyil. Onların özləri də heç bilmirlər nə desinlər aksiyalarda. Sadəcə göstəriş üçün bu cür aksiyalar keçirirlər. Yəni bunlara ehtiyac yoxdur".

**Şəhər sakini Gülnaz Qasımov:** "Hər dövlətin tərkibində müxalif fikirli insanlar mövcuddur. Onların arxasında da müəyyən dövlət əleyhinə qüvvələr var. Dövlət hər zaman çalışır ki, onun vətəndaşları firavan həyat sürsün. Bir çox sosial məsələlərin həlli üçün işlər görülür. Amma müxalif qüvvələr yenə də öz mənfi fikirlərini cəmiyyətə təbliğ



etmək istəyirlər".

**Şəhər sakini Ruslan Məmmədov:** "Hər kəsi razı salmaq mümkün deyil. Hər zaman toplum arasında narazılıq edənlər




olur. Dövlət əleyhinə mitinqlərin, aksiyaların keçirilməsinə ehtiyac yoxdur. İnsanlar öz narazılıqlarını düzgün şəkildə də ifadə edə bilərlər. Aksiyaların keçirilməsi bir növ şoudur".

**Şəhər sakini Təranə Zəfərova:** "Müxalif düşüncəli insanlar hər zaman olub və olacaq. Bu, tək bizim ölkədə deyil, bir çox



ölkələrdə belədir. Həmişə narazı olan, olunanları bəyənməyən tərəfi mütləq ki, olur. Lakin bilmək lazımdır ki, xəyanətkar insan çox şey edə bilər. Burada söhbət torpağına, vətəninə edilən xəyanətdən gedir".

**Şəhər sakini Natəvan Məmmədova:** "Ölkəmiz inkişaf etməyə başlayıb, müasirləşir. İnsanların vəziyyətimin yaxşılaşdırılması üçün işlər görülür. İnsanlar işlə təmin



olunur. Amma müxalif qvvələr hər zaman dövləti pisləməyə çalışırlar. Guya dövlət heç bir iş görmür. Mənasız aksiyalar edirlər, fikirlər səsləndirirlər. Bunların hamısı boş işlərdir. Mənə elə gəlir ki, bu aksiyalar yersizdir".

***Abutel İlhamqızı***

# YAP xalqımızın milli maraqlarını ifadə edən avanqard siyasi qüvvəyə çevrilib!

**Respublikamızın hər yerində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbirlər keçirilib**

## Tovuz

Oktyabrın 24-də Tovuz rayon Nizami adına Mədəniyyət evində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə ediblər.

Sonra Tovuz Şəhidlər Xiyabanı ziyarət olunub, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə tər güllər düzülüb. Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının yaranması və inkişaf tarixindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə "YAP Azərbaycanın şərəfli tarixinin yaşıdı, möhtəşəm uğurlarımızın ilham mənbəyidir" mövzusunda məruzə ilə çıxış edən YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov partiyanın yaranma tarixindən, keçdiyi şərəfli yoldan, gələcək hədəflərindən danışıb. Bildirib ki, 30 illik zəngin və şərəfli inkişaf yolu keçən YAP ötən müddət ərzində ümumxalq partiyasına çevrilərək möhtəşəm nailiyyətlər







əldə edib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə çıxışında 30 il öncə Azərbaycanda mövcud ağır durumun yeni bir siyasi təşkilatın yaranması zərurətini ortaya qoyduğunu deyib. Bildirib ki, bu məqsədlə Azərbaycanın bir qrup qabaqcıl ziyalısının xalqın iradəsini ifadə edən müraciətinə cavab olaraq Heydər Əliyev YAP-ın yaradılmasına razılıq verdi. YAP müstəqilliyə qovuşan ölkəmizin həyatında ən təlatümlü, həyacanlı zamanda yaradıldı. Təsis edilməsinin 30-cu ildönümünü isə partiyamız ölkə tarixinin ən şanlı günlərində qeyd edir.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov YAP-ın yaranma və inkişaf tarixindən bəhs edib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin, atılan uğurlu addımların nəticələri Azərbaycanın və partiyamızın həyatında özünü aydın şəkildə göstərir.

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov qeyd edib ki, ulu öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə sosial-iqtisadi islahatlar aparılır, geniş abadlıq-quruculuq işləri görülür. Qazanılan nailiyyətlər Azərbaycanın qüdrətinin daha da artmasını şərtləndirir.

Tədbirdə partiya veteranı Sahib Quliyev, Vətən müharibəsi iştirakçısı Nahid Hüseynov, rayon Gənclər və İdman İdarəsinin rəisi Sahib Ələsgərov partiyanın ötən 30 il ərzində keçdiyi şərəfli yola nəzər salıblar. Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi təqdim edilib.

## Zərdab

Oktyabrın 24-də Yeni Azərbaycan Partiyasının (YAP) Zərdab rayon təşkilatı tərəfindən rayon Heydər Əliyev Mərkəzində partiyanın təsis edilməsinin 30 illiyi münasibəti ilə tədbir keçirilib.

Öncə Zərdab şəhər şəhidlərin xatirə parkı və Heydər







Əliyev parkında Ümummilli Liderimizin abidəsi ziyarət olunub. Şəhidlərimizin və ulu öndər Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edilib. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və Yeni Azərbaycan Partiyasının qurucusu, ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçmiş bütün şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb.

Sonra Yeni Azərbaycan Partiyasının şərəfli tarixini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə Yeni Azərbaycan Partiyasının Zərdab rayon təşkilatının sədri İlkin Əliyev bildirib ki, Yeni Azərbaycan Partiyası 30 il öncə xalqımızın çətin sınaqlar və mürəkkəb problemlərlə üz-üzə qaldığı bir dövrdə yaranıb. Yeni Azərbaycan Partiyası xalqımızın milli maraqlarını ifadə edən avanqard siyasi qüvvəyə çevrilib. İlkin Əliyev YAP Zərdab rayon təşkilatında 54 ərazi partiya təşkilatının işinin Yeni Azərbaycan Partiyasının Nizamnaməsinə, yerli təşkilatları haqqında əsasnamənin tələblərinə və Mərkəzi Aparatının tövsiyə və tapşırıqlarına uyğun olaraq qurulduğunu diqqətə çatdırıb.

Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Mərdan Camalzadə çıxışında qeyd edib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət, qəbul etdiyi dövlət proqramları, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrinin inkişafı ilə nəticələnmiş, Azərbaycan nəinki regionda, beynəlxalq səviyyədə qəbul edilən nüfuzlu, qüdrətli dövlətə çevrilmişdir.

Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rəşad Mahmudov bildirib ki, müasir müstəqil Azərbaycanın şanlı siyasi tarixinin mühüm səhifələrindən birini ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılması təşkil edir. Yeni Azərbaycan Partiyasının yaradılması ilə Azərbaycanın xilasının, tərəqqi yoluna çıxmasının əsası qoyuldu. Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının keçdiyi 30 illik şərəfli yolda ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynamaqla yanaşı, müasir dövrdə beynəlxalq aləmdə tanınan nüfuzlu partiyalar sırasında olması dahi şəxsiyyətin uzaqgörən, müdrik siyasətinin nəticəsidir. Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən böyük siyasi partiyası, gəncliyin güvənc yeridir: "Yeni Azərbaycan Partiyası Ulu Öndərimizin düşüncə və siyasi ideologiyasının əbədi məktəbi, yeniləşən və inkişaf edən qüdrətli Azərbaycan isə bu məktəbin yaratdığı xoşbəxt taleli məmləkətdir".

Milli Məclisin deputatı Jalə Əliyevaya çıxışında vurğulayıb ki, Yeni Azərbaycan Partiyasının tarixi müstəqil Azərbaycan dövlətinin inkişaf salnaməsidir. Müasir, müstəqil Azərbaycanın tərəqqisi, möhtəşəm tarixi nailiyyətlər qazanaraq güclü - qüdrətli dövlətə çevrilməsi Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası ilə bilavasitə bağlıdır. Ulu Öndərin siyasi mirası olan Yeni Azərbaycan Partiyası ötən 30 il ərzində nümunəvi, zəngin və şərəfli inkişaf yolu keçib, bir çox uğurlara imza atıb.

Tədbirdə Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının veteranı, təşkilatın 49 saylı ərazi partiya təşkilatının sədri Qafur Məmmədov, Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının 12 saylı ərazi partiya təşkilatının sədr müavini Rüxsarə Eminova və Vətən müharibəsi iştirakçısı, gənc müəllim Hikmət Novruzov çıxış edərək Yeni Azərbaycan Partiyasının yaradılmasının Azərbaycanın siyasi tarixinin ən parlaq səhifələrindən biri olduğunu bildiriblər.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul edilmiş şəxslərə üzvlük vəsiqələri təqdim edilib.

## Lerik

Oktyabrın 24-də Lənkəran Regional Mədəniyyət İdarəsinin Lerik rayon Mədəniyyət sarayında Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunan tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları Lerik Şəhidlər Xiyabanını ziyarət edib, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzüblər.







Sonra ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə edilib.

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr edilən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Lerik rayon təşkilatının sədri Malik Mirzəyev Yeni Azərbaycan Partiyasının Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yarandığını deyib. M.Mirzəyev vurğulayıb ki, YAP tarixdə çox nadir siyasi təşkilatlardan biri hesab oluna bilər ki, yarandıqdan 6 ay sonra iqtidar partiyasına çevrilib. Bu hadisənin özü xalqın ümummilli lider Heydər Əliyevə inam və etimadını ifadə edən mühüm faktdır.

YAP İdarə Heyətinin üzvü Əfsun Sucayev partiyanın inkişaf yolundan bəhs edib. O bildirib ki, 1999-cu ildən sonra Yeni Azərbaycan Partiyası dünyanın bir sıra ölkələrinin siyasi təşkilatları ilə ikitərəfli əlaqələr qurdu, beynəlxalq təşkilatlarda təmsilçilik hüququ qazandı. Buna isə yeni dövrün yeni lideri olan Prezident İlham Əliyevin xüsusi xidmətləri sayəsində nail olundu. Bundan sonra partiyaya gənclərin axını başladı. Məhz gənc kadrlara verilən yüksək qiymət, yeni mərhələdə gənclərə etimad məsələsi Yeni Azərbaycan Partiyasında gənclərin sırasını daha da genişləndirdi.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı İqbal Məmmədov bildirib ki, partiyanın gücü onun siyasi proseslərdəki mühüm rolu, iştirakı və qələbəsi ilə ölçülür. Partiyanın gücü xalqın rəğbətini, sevgisini qazanmasındadır, böyük sosial bazaya malik olmasında və seçkilərdə parlaq qələbələr əldə etməsindədir. Bu gün YAP Prezident İlham Əliyevin rəhbərliyi ilə Cənubi Qafqaz bölgəsinin ən güclü siyasi qüvvəsi kimi özünü təsdiq edib.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov qeyd edib ki, Yeni Azərbaycan Partiyası ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində ölkəmizdə meydana çıxan mürəkkəb siyasi situasiyanın daxili məntiqindən, zamanın təxirəsalınmaz tələbindən irəli gələrək Azərbaycan xalqının arzu və istəklərinin ifadəçisi kimi yaranan partiyadır.

Lerik Rayon Ağsaqqallar Şurasının sədri Elxan Qənbərov, şəhid atası Mükafat Yaqubov, Lerik şəhər 2 saylı ərazi partiya təşkilatının sədri Gültəkin Şıxəliyeva, Lerik şəhər 1 saylı ərazi partiya təşkilatının sədri Pərviz Ağaxanlı çıxışlarında partiyanın ötən 30 il ərzində keçdiyi şərəfli yola nəzər salıblar. Tədbirin sonunda Lerik rayonunun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fermanlar təqdim edilib.

## Zaqatala

Oktyabrın 22-də Zaqatala rayon Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə edilib

Sonra tədbir iştirakçıları Zaqatala Şəhidlər Xiyabanını ziyarət edib, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzüblər.

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov bildirib ki, Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranıb. Bu gün Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən güclü siyasi qüvvəsidir.





H.Qurbanov vurğulayıb ki, Azərbaycan xalqı əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasəti tam dəstəkləyir. Qeyd edib ki, regionun güc mərkəzinə çevrilən Azərbaycan dövlətinin nailiyyətlərinin arxasında vətəndaş həmrəyliyi və uğurlu dövlət siyasəti dayanır. 44 günlük Vətən müharibəsinin möhtəşəm zəfərimizlə başa çatmasının əsasında da məhz bu həmrəylik və vətəndaşlarımızın Prezident, Ali Baş Komandan, partiyamızın Sədri İlham Əliyevin siyasətini birmənalı şəkildə dəstəkləməsi dayanır. Rayon təşkilatının fəaliyyəti haqqında da ətraflı məlumat verən H.Qurbanov diqqətə çatdırıb ki, hazırda ərazi təşkilatlarının sayı 68-ə, üzvlərinin sayı 7 min 150 nəfərə çatıb.

YAP İdarə Heyətinin üzvü Bayram Aslanov çıxışında bildirib ki, Azərbayacanın qazandığı böyük nailiyyətlər ulu öndər Heydər Əliyevin yaratdığı və bu gün Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bilavasitə bağlıdır. Milli Məclisin deputatı Kamilə Əliyeva isə çıxışında diqqətə çatdırıb ki, Azərbaycan 1990-cı illərin əvvəllərində uçurumun astanasında idi. Lakin ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi.

YAP Veteranlar Şurasının üzvü İbrahim Əzizov bildirib ki, ulu öndər Heydər Əliyev ideyalarına sadiq olan və bu ideyalar əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin Sədrliyi ilə böyük inkişaf yolu keçib.

Daha sonra partiya fəalı, RİHB-nın müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Vəfa Süleymanova bildirb ki, bu gün YAP xalqımızın milli maraqlarını ifadə edən vahid və avanqard siyasi qüvvəyə çevrilib.

Tədbirdə, həmçinin YAP Zaqatala rayon təşkilatının veteran üzvü, Rayon Ağsaqqallar Şurasının sədr müavini Tahir Məmmədov, partiya fəalı, Rayon Gənclər və İdman İdarəsinin rəisi Araz Əliyev, Şəhid, Milli Qəhrəman Natiq Məmmədovun atası Bəşir Məmmədov, ehtiyatda olan baş gizir, Vətən müharibəsi iştirakçısı Elman İsmayılov çıxış edərək Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, 44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbədən, işğaldan azad olunan ərazilərdə aparılan böyük quruculuq-bərpa işlərindən ətraflı bəhs ediblər.

Sonda çıxış edən Zaqatala rayon İcra Hakimiyyətinin başçısının birinci müavini Tofiq Əhmədov bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atmaqdadır.

Tədbirin sonunda Zaqatala rayonunun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fermanlar, Vətən müharibəsi iştirakçılarına "Vətən müharibəsi iştirakçısı" medalları, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi təqdim edilib.

# Ermənilər Qafandakı yunan kilsəsini tövləyə çeviriblər!

Ermənilərin yalnız islama qarşı deyil, eləcə də özlərinə aid olan monofizit "inanca" məxsus "qriqorian apostol kilsəsindən" fərqli xristian məzhəblərinin ibadət ocaqlarına da vəhşilik münasibətləri fakt olaraq dəfələrlə sübuta yetirilib. Təkcə Qarabağda mövcud olan Rusiya pravoslav kilsəsinə və qədim Qafqaz Albaniyasına məxsus məbədlərin erməniləşdirilməsi, yaxud kökLü şəkildə dağıdılması faktları da kifayət qədərdir. Ən azından, Xocavənd rayonu ərazisindəki rus kilsəsinin xarabazarlığa çevrilməsi də həmin faktı isbatlamaqdadır.

Bu günlərdə isə məlum olub ki, tarixi Qərbi Azərbaycan ərazilərinə aid olan Qafan şəhərində mövcud olan yunan kilsəsi ermənilər tərəfindən tövlə kimi istifadə olunmaqdadır. SİA xəbər verir ki, bu barədə telegra.ph portalı yazır. Məlumatdan da bəlli olur ki, yunanların müasir Qafan ərazilərinə gəlişləri bu yerlərdə mis yataqlarının işlənməsi ilə bağlıdır.



Eyni zamanda, həmin ərazilərdə kiçik məskən salan yunanların əksəriyyəti türkdilli urumlardan ibarət olublar. Onlar Bizans imperiyası dövrlərindən başlayaraq keçmiş Aqirupolisin (Trabzon şəhəri ilə həmsərhəd) Gümüşhanə şəhərindən buralara gəliblər.

## Kilsə tamamilə atılmış vəziyyətdədir

Dağ-mədən işlərinin peşəkarları 1760-cı illərdən başlayaraq məhz həmin yerlərdən Qafan şəhərinin kənarlarına gələrək mis yataqlarında işləməyə başlayıblar. 19-cu əsrin ortalarına yaxın bu ərazilərdə yunan məskənləri salınmağa başlayıb. 1851-ci ildə isə Trabzondan Qafanın Kavart kəndi yaxınlığına Xarlampiy Kundurov adlı yunan taciri gəlir və yerli yataqlarda daha iri miqyaslı işlərə başlayır. Onun bir neçə yataq ərazilərində kiçik zavodlar inşa etdiyi bildirilir.

## Kilsə üzərindəki pravoslav xaçı dağılmış taxta günbəzin içinə düşüb

Beləliklə, 1865-ci ildə yunan taciri Xarlampiy Kundurovun təşəbbüsü ilə yunan işçilər üçün pravoslav kilsəsi inşa olunur. Hazırda məbədin binası mal-qara və donuzlar üçün tövləyə çevrilib. Və bunu yalnız bizlər deyil, həmin yerlərdə olan və oraların fotoşəkillərini çəkən xarici turist bildirir. Hətta kilsə üzərində həkk olunmuş yazı da seçilmir, ancaq hərflərin yunan deyil, rus əlifbası ilə yazılması ehtimalı daha çox görünür. Məbədin içi isə mal-qara nəcisləri ilə dolub.

Beləliklə, fakt budur ki, Ermənistanın özünü dünyaya "ilk xristianlar" kimi zorla sırımaq cəhdlərinə baxmayaraq onların ümumiyyətlə, bu inanca heç bir aidiyyatları, ehtiramları və ümumiyyətlə, münasibətləri yoxdur. Əgər bizlər ermənilərin Qarabağ ərazilərində müsəlman abidələrinə, məzarlıqlarına, dini ocaqlarına qarşı erməni vandallıqlarının, vəhşiliklərinin şahidləri olurdusa, artıq bundan sonra "erməni apostol kilsəsi" deyilən saxta monofizit "xristianlığın" digər xristian məzhəblərinə məxsus abidələrinə qarşı da eyni davranışlarını müşahidə edəcəyik. Və ən əsası, əgər bu gün Qarabağda dağıdılmış dini abidələrimiz yenidən bərpa olunursa, inanaq ki, çox yaxınlarda qədim Azərbaycan şəhəri Qafandakı bu yunan məbədi də məhz Azərbaycanın vasitəsi ilə bərpa edilərək əvvəlki görkəminə gətiriləcək.

**Rövşən RƏSULOV**

# "Heydər Əliyev dedi ki, sədaqətin, məhəbbətin ölçü vahidi zamandır"

***-Siyavuş müəllim, Yeni Azərbaycan Partiyasının yaranmasının 30-cu ildönümü münasibəti ilə sizi təbrik edir və partiyanın qurucularından biri olaraq xatirələrinizi bizimlə bölüşməyinizi istərdik. Hər şey necə başladı?***

-Yeni Azərbaycan Partiyasının 30 illiyi ilə bağlı bütün xalqımızı və partiyamızın Sədri, Prezident İlham Əliyev başda olmaqla təşkilatın rəhbərliyini, həmçinin qızıl fondumuz olan "91"-ləri təbrik edirəm. Ümumiyyətlə, bu yubiley ili bütövlükdə partiyamızın xidmətində olan bütün insanların bayramıdır. YAP 30 ildə Azərbaycan üçün çox böyük işlər gördü və bu gün də həmin işləri ni uğurla davam etdirməkdədir. Çünki partiyanın təməli elə bir insan, elə bir dahi şəxsiyyət tərəfindən qoyulub ki, məhz o düzgün təməlin üzərində Yeni Azərbaycan Partiyası inkişaf edir, yüksəlir, şaxələnir.

**"Xalqı sırf gələcəyə doğru aparan, dövləti, dövlətçilik maraqlarını qoruya biləcək bir partiya yox idi"**





"SƏS" qəzetinin müsahibi Yeni Azərbaycan Partiyasının üzvü, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzovdur

Mənim çox yaxşı xatirimdədir, o vaxtı ictimai-siyasi vəziyyət tələb edirdi ki, belə bir partiya yaransın. Bilirsiniz ki, Azərbaycanda hərc-mərclik idi, ölkədə çoxpartiyalı sistemin yaranması başlamışdı, amma hərə bir siyasi yön götürürdü - biri millətçi, biri sosial-demokrat, biri Türkiyədə olan partiya adlarını gətirib qoyurdu, məsələn, Doğru Yol, Ana Vətən və s. Onlar öz təşkilatlarını Türkiyədəki partiyaların adları ilə müqayisə edirdilər. Yəni ortada bir xalqı özündə cəmləşdirən, birləşdirən, xalqın maraqlarına xidmət göstərən, xalqı sırf olaraq gələcəyə doğru aparan, dövləti, dövlətçilik maraqlarını qoruya biləcək bir partiya yox idi.

Hərəkat amili isə aydın idi ki, hərə bir tərəfdən yığışmışdı və o da ümumi maraq çərçivəsində quruldu. Ölkənin dar günündəki hərəkat zamanı o vaxtkı "KQB" agentləri, SSRİ və Rusiya kəşfiyyatının nümayəndələrinə sadə xalq da qoşulurdu ki, onların heç nədən xəbərləri yox idi. Ona görə də hərəkatdakı bir sıra adamlar onu istədikləri tərəfə çəkirdilər.

***-Həmin vaxtlar hərəkatda tələblər də çoxluq təşkil edirdi...***

-Bəli, mən də o zaman hərəkatda idim və hüquq fakültəsində təhsil alırdım. O zaman biz "Əlincə" Xeyriyyə Cəmiyyəti yaratmışdıq. Cəmiyyətin əsas funksiyası sərhəd rayonlarında sosial-iqtisadi vəziyyətə, eləcə də erməni terrorundan əziyyət çəkən insanlara yardım etmək məqsədini daşıyırdı. Məhz həmin vaxtlarda Heydər Əliyevin hüquqlarının müdafiəsi məsələsi gündəmə gətirildi. İlk növbədə qeyd edim ki, Heydər Əliyevə Bakıda imkan verilmədiyi üçün Naxçıvana getdi. Bu tarix hamıya məlum olduğuna görə həmin məsələnin üzərində geniş şəkildə dayanmıram. Lakin Ulu Öndər Naxçıvanda olarkən bəlli qüvvələr onu Naxçıvanda da blokadaya almağa cəhd göstərdilər.

**"Qəzetin adı da ona görə "SƏS" qoyulmuşdu ki, o Heydər Əliyevin səsini ictimaiyyətə, xalqa çatdırmalıydı"**

Ümumiyyətlə, hansısa mətbu orqanda və s. Heydər Əliyev adının getməsinə qadağa qoyulmuşdu. Məhz həmin ərəfələrdə "Əlincə" Cəmiyyəti "SƏS" qəzetini dərc etməyə başladı və bu tarixi qəzet ilk mətbu orqanlardan idi ki, Heydər Əliyevin təbliğatını aparmağa başladı. Sonradan "İki sahil", "Aydınlıq" qəzetləri də bu istiqaməti tutdular, amma "SƏS" qəzeti ilk olaraq belə bir cəsarətli addımını atdı. Qəzetin adı da ona görə "SƏS" qoyulmuşdu ki, o Heydər Əliyevin səsini ictimaiyyətə, xalqa çatdırmalıydı. Mən həmin vaxt qəzetin təsisçisi, eləcə də onun çıxmasına məsul şəxs idim. O dövrlərdə "SƏS" qəzeti ayrı-ayrı şəxslərin Ulu Öndər Heydər Əliyev haqqında məqalələrini, çağırışlarını və bəyanatlarını yaymağa başladı. Məsələn, rəhmətlik Zahid Qaralovun "Heydər dağına kölgə salmaq olmaz" yazısı, yaxud Kərim Kərimovun, eləcə də digər tanınmış şəxslərin, ziyalıların, elm və mədəniyyət xadimlərinin yazıları nəhəng oxucu auditoriyasına çatdırılırdı. Artıq insanlar da anlamağa başladılar ki, Heydər Əliyev xalqın, ölkənin xilaskarı olaraq Naxçıvandadır və onun sayəsində xalqımız, dövlətimiz düşdüyü ağır böhrandan çıxa bilər.

İkinci tərəfdən, Naxçıvanın Ali Məclisinin Sədri kimi Ümummilli Liderin orada qəbul etdiyi qərarları da "SƏS" qəzeti dərc edirdi. Halbuki, həmin qərarlar "Azərbaycan" qəzetində dərc edilməliydi, amma bu edilmirdi. Bu baxımdan, "SƏS" qəzetində həmin qərarların dərc edilməsi çox çətin idi. Təsəvvür edin ki, elə olurdu ki, mən həftədə bir dəfə Naxçıvana uçurdum və oradan həmin qərarları gətirirdim və yüz minnətlə senzuradan keçirirdik. Hansı ki, bu gün demokratiyadan danışanlar Naxçıvan Ali Məclisinin qərarlarının dərc olunmasına icazə vermirdilər, çünki orada Heydər Əliyevin imzası dayanırdı. Hansı ki, bütün bunlar feldyeger xidmətinin borcu idi, amma bu xidmət göstərilmirdi. Ona sərt qadağa qoyulmuşdu. Həmin vaxtlar Moskvadan müxtəlif qəzet və jurnallar gəlirdi ki, Heydər Əliyev onları mütailə etməli, oxumalıydı. Həmin vaxt həmin qəzet və jurnallar da Naxçıvana əl ilə aparılırdı, çatdırılırdı.

***-Bildiyimizə görə, Heydər Əliyev "SƏS" qəzetinin əməkdaşları ilə telefon danışıqları aparır, əlaqə yaradırdı, sizin onunla telefon danışıqlarınız olubmu?***

-Bəli, belə hallar olurdu və kiçik bir xatirəmi də sizinlə bölüşmək istərdim. İlk dəfə Heydər Əliyev Naxçıvandan zəng edərkən telefonu təsadüfən mən qaldırmışam. Hətta bir dəfə belə bir hadisə yaşanıb: bildiyimiz kimi, o vaxtlar şəhərlərarası telefon danışıqları bir mərkəzdən birləşdirilirdi. Yəni zəng edənin kimliyi, haradan zəng etməsi əvvəlcədən məlum olurdu. Ulu Öndər isə birbaşa zəng etdi və mən telefonu qaldıranda onun səsini tanımadım.

**"Ona dərhal dedim ki, həyəcandan səsim tutulub, gəlin danışın, xəttin o biri başında Heydər Əliyevdir!"**

O, bəzi şəxslərin adlarını soruşdu, kimin redaksiyada olduğunu sual etdi ki, danışsın. Mən də özüm-özümə düşündüm ki, axı zəng edən şəxs bu adamların adlarını haradan tanıyır. Nəticədə soruşanda danışan kimdi, həmin şəxs cavab verdi ki, danışan Heydər Əliyevdi və mən özümü həmin an itirdim, telefonun dəstəyini özüm də bilmədən, həyəcandan kənara atdım (gülür-R.R.) Yaxşı ki, həmin an qəzetin baş redaktoru Ağabəy Əsgərov orada idi. Ona dərhal dedim ki, həyəcandan səsim tutulub, gəlin danışın, xəttin o biri başında Heydər Əliyevdir!

Ancaq həmin hadisədən sonra redaksiyamıza uzun zəng gələndə bilirdim ki, Ulu Öndərdir, Naxçıvandan zəng edir. O, zəng edərkən hal-əhval tuturdu, hamının kefini ayrı-ayrılıqda soruşurdu, vəziyyətlə maraqlanırdı, Bakıdakı vəziyyəti bizdən soruşurdu.

***-Siyavuş müəllim, universitetdə təhsil alarkən həmin təhsil müəssisəsinin ayrı-ayrı məsul şəxsləri tərəfindən "SƏS" qəzetində çalışmağınıza qarşı basqılar olurdumu?***

-Bir neçə dəfə olub. Həmin vaxtlar nəinki mənə, o cümlədən digərlərinə qarşı da silsilə basqılar, təzyiqlər, təqiblər baş verirdi. Mənə qarşı da bu kimi hallar yaşanıb. Allah rəhmət eləsin, Fərəməz Maqsudov, Murtuz Ələsgərov daim bizə bu məsələlərdə köməklik edir, imkan vermirdilər ki, ali təhsil müəssisəsindən xaric olunum. O vaxt universitetin rektoru Mirabbas Qasımov idi, Allah ona da rəhmət eləsin, birtəhər öz köməkliyini göstərərək müəyyən dərəcədə vəziyyətin qarşısını alırdı. Lakin onu da deyim ki, əsas tapşırıqlar yuxarıdan gəlirdi. Bizim nə qədər ziyalılarımızı, professorlarımızı döydülər, repressiyalara məruz qoydular ki, onlar Heydər Əliyevin müdafiəsinə qalxırlar və s.

**Ardı Səh. 11**

Əvvəli Səh. 10

# "Heydər Əliyev dedi ki, sədaqətin, məhəbbətin ölçü vahidi zamandır"

Yeri gəlmişkən, həmin ərəfələrdə yaş senzinin - 121-ci maddənin ikinci bəndinin aradan qaldırılması tələbi ilə mitinqlərə də başlamışdıq. Orada əlavə olunmuşdu ki, 70 yaşından yuxarı olan şəxslər prezident seçilə bilməzlər. Halbuki, adətən dünya praktikasında aşağı hədd qoyurdular, yuxarı həddə heç bir maneələr yox idi. Ona görə də bu, bilavasitə Heydər Əliyevə qarşı tətbiq edilən bir baryer cəhdi idi.

## "MSK-ya getdik və bizə bildirdilər ki..."

Biz Ali Sovetin qarşısında 20 gündən artıq mitinqlər keçirdik. O zaman təşkilatçılar Əli Nağıyev, Murtuz Ələsgərov, Səfiyar Musayev, Sirus Təbrizli, Xəlil Rza Ulutürk və eləcə də partiyamızın İdarə Heyətində və s. orqanlarında olan digər ilk insanlar idi. Heydər Əliyevin namizədliyini o vaxt idarə və müəssisələr irəli sürürdülər. O vaxt 300-dən artıq idarə və müəssisə Ulu Öndərin prezidentliyə namizədliyini irəli sürmüşdülər. Və heç bir təşkilat digər namizədlər üçün bu qədər sayda dəstəkçilər tapa bilməmişdilər. Lakin MSK-ya getdik və bizə bildirdilər ki, məhz 121-ci maddənin 2-ci bəndi olduğuna görə onun namizədliyini qeydə ala bilmərik. Bəlli idi ki, bu, AXC-Müsavat cütlüyü idi və o zamankı iqtidar olaraq bizə qarşı oyun oynayırdılar. Əgər onlar həqiqətən də demokratik seçki istəyirdilərsə, demokratik seçki mühiti yaratmalıydılar, ancaq göründüyü kimi, ortada hər hansı bir demokratiyadan danışmağa yer belə qoymamışdılar.

1992-ci ilin aprel-may ayları idi və MSK Heydər Əliyevin namizədliyini qeydə almadıqdan sonra belə bir qərar qəbul olundu ki, onda Ulu Öndərin siyasətini dəstəkləyən tərəfdarları üçün bir siyasi təşkilat yaratmaq lazımdır. Həmin siyasi təşkilat da Yeni Azərbaycan Partiyası oldu. Mən indiyə qədər həmin mitinqdəki portretləri, plakatları, meqafonu, şüarları saxlayıram. Həmin vaxtlarda isə yataqxanada yaşayırdım və gətirib oraya yığırdım və səhər tezdən yenidən Ali Sovetin binasına apararaq orada mitinqlərimizi davam etdirirdik.

## "Maraqlısı da budur ki, biz ikitərəfli hücumlara məruz qalırdıq"

20 gündən artıq mitinq keçirdik və sonda silahlı basqın olundu. O vaxt Hacı Əbdülün də tərəfdarları bizə qarşı silahlı hücum elədi və mitinqi nə polis, nə də digər hüquq-mühafizə orqanı deyil, bir qoçu dəstəsi dağıtdı. Maraqlısı da budur ki, biz ikitərəfli hücumlara məruz qalırdıq - həm xalq cəbhəsi tərəfdarları, həm də Ayaz Mütəllibovun tərəfdarları bizə mane olmağa çalışırdılar.

Nəticə etibarı ilə belə qərar qəbul olundu ki, YAP yaransın. Bu olayın da tarixçəsi var. 1992-ci ilin may ayının 28-də "Ümid" körpüsünün açılışı idi. Həmin vaxt Fərəməz Maqsudov Türkiyədə idi və "Əlincə" Cəmiyyətinin rəhbəri kimi onu qardaş ölkəyə dəvət etmişdilər. Əli Nağıyev də açılışa gedə bilməmişdi. Ona görə də mən, Murtuz müəllim, Ziyafət Əsgərov, Munis bəy birlikdə körpünün açılışına getdik. Məhz həmin açılış ərəfəsində söhbət etdik ki, Murtuz müəllim partiya söhbətini Heydər Əliyevlə müzakirə etsin, təklif irəli sürsün. Həmin vaxt Heydər Əliyev bildirdi ki, "Mən artıq bir partiyanın üzvü olmuşam" və bir qədər tərəddüd etdi. Lakin sonrakı proseslər Yeni Azərbaycan Partiyasının təsis edilməsinə və partiyanın Sədrinin Heydər Əliyev olmasına zərurət yaratdı.

*-Siyavuş müəllim, bəs partiya yaradılarkən qeyri adlar üzərində də müzakirələr aparıldımı?*

- Çox adlar var idi. Məsələn, biz Doğru Yol Partiyası adı üzərində də dayanmışdıq. Bildiyimiz kimi, Heydər Əliyev o zamanlar Süleyman Dəmirəllə dostluq və qardaşlıq münasibətində idi. Məhz "Ümid" körpüsünün açılışı ərəfəsində təklif etdik ki, yaradılacaq partiyanın da adı Doğru Yol adlandırılsın. Lakin biz bu qərarı verənə qədər Tamerlan Qarayev 1992-ci ilin iyun ayında Doğru Yol Partiyasını yaratdı. Artıq bu ad uyğun gəlmədi və sonradan bu səpkidə danışıqlar başladı, bayaq da dediyim kimi, Ümummilli Lider əvvəlcə tamamilə etiraz elədi.

## "Ulu Öndər ümumi qaydada razılıq verdi ki, baxaq-görək necə olur, hələlik, gedin işləyin"

Ancaq Azərbaycanda vəziyyət get-gedə gərginləşirdi və sonradan Bakıdan Naxçıvana üç qrup nümayəndə heyəti getdi və onların ikisində mən də iştirak etmişəm. Hər müzakirə çox geniş şəkildə, hətta saatlarla aparıldı. Sonra Fərəməz Maqsudov, akademik Ramiz Rzayev Heydər Əliyevlə görüşməyə getdi. Onlardan sonra isə Sirus Təbrizli tək getdi. Onların ardınca isə mən və Əli Nağıyev Naxçıvana getdik. Bütün bunlardan sonra Ulu Öndər ümumi qaydada razılıq verdi ki, baxaq-görək necə olur, hələlik, gedin işləyin və s. Biz Bakıya geri döndükdən sonra Sirus Təbrizlini də dəvət etdik və biz Hacıbala Abutalıbovun laboratoriyasında toplandıq. Məhz orada apardığımız müzakirələrdən sonra Sirus Təbrizli təklif etdi ki, gəlin siyasi təşkilatın adını Yeni Azərbaycan Partiyası qoyaq. Amma buna qədər Əli Nağıyev təklif etdi ki, Heydər Əliyevə müraciət qəbul olunsun və həmin vaxt Sirus Təbrizli "91"-lərin məşhur müraciətini hazırladı.

## "Bir vaxtlar Heydər Əliyev çörəyi yeyənlər, Heydər Əliyevin vəzifəyə gətirdiyi adamlar, ən yüksək kürsülərdə oturan insanlar, Heydər Əliyevin xalq şairi, xalq artisti, xalq yazıçısı adları verdiyi şəxslərin əksəriyyəti imza atmaqdan imtina etdilər"

Əsas məsələ isə həmin müraciətin altında imzaların atılmasında idi. Müraciət "Azərbaycan Sizin sözünüzü gözləyir" başlığı ilə hazırlandı və o insanlar arasında bölündü. Misal üçün, mədəniyyət xadimlərini Sirus Təbrizli toplamalıydı. Ali təhsil müəssisələrindən Əli Nağıyev, Akademiyadan Fərəməz Maqsudov, Ağabəy Əsgərov imza toplamalıydı. Ümumiyyətlə, imzatoplama kampaniyası bölünsə də, bizim hamımız müxtəlif istiqamətlərdə fəaliyyət göstərən tanınmış şəxslərdən, ziyalılardan, gənclərdən və s. imzalar toplayırdıq. Məsələn, Pedaqoji Universitetdə rəhmətlik Həsən Mirzəyev bu işlə məşğul olurdu, Rafael Allahverdiyev deputatlardan, Zahid Qaralov əslən Gürcüstandan olan ziyalılardan imza toplayırdı. Yəni, bu şəkildə qruplarımız fəaliyyət göstərirdilər ki, həmin prosesi qısa müddətdə tamamlayaq və qarşıda dayanan məqsədimizə nail olaq.

Lakin bir haşiyə çıxaraq onu da deyim ki, bir vaxtlar Heydər Əliyev çörəyi yeyənlər, Heydər Əliyevin vəzifəyə gətirdiyi adamlar, ən yüksək kürsülərdə oturan insanlar, Heydər Əliyevin xalq şairi, xalq artisti, xalq yazıçısı adları verdiyi şəxslərin əksəriyyəti imza atmaqdan imtina etdilər. Onların arasında yalnız iki insan öz imzalarını atdılar - Xəlil Rza Ulutürk və Zeynəb Xanlarova. Əgər soruşsanız deyə bilərəm ki, bu gün də Heydər Əliyevi dəstəkləmək üçün həmin müraciətə imza atmaqdan imtina edən şəxslərdən vəzifələrdə olanlar var.

*-Siyavuş müəllim, hazırkı dövrdə həmin vaxt imza atmaqdan imtina edənlərlə qarşı-qarşıya gələrkən bu mövzu gündəmə gətirilirmi?*

-Dəfələrlə olub. Məsələn, birinci katiblər var idi ki, həm də deputat idilər. Məsələn, deputatlardan çox az adam imza atmışdı. Onların içində Mixail Zabelin, Eldar İbrahimov və daha bir neçə nəfər təşəbbüsümüzə qoşuldular. Hansı ki, həmin vaxt Ali Sovetdə 350 nəfər deputat var idi və onların böyük əksəriyyətini vaxtilə Heydər Əliyev yüksək vəzifələrə çəkmişdi, onlar üçün uğurlu perspektivlər yaratmışdı. Onların içlərində rayon partiya komitəsinin sədrləri, ispalkomlar, nazirlər, nazir müavinləri, baş nazirin müavinləri, akademiklər var idi ki, əksər çoxluğu imza atmaqdan yayındılar. Hətta Fərəməz Maqsudov o zamankı Riyaziyyat institutunun direktoru idi və qərargahımız da orada yerləşirdi, həmin müəssisədə çalışanlar da Heydər Əliyevi dəstəkləməkdən imtina etdilər.

## "Oktyabrın 24-də məqalə yenicə çap edilmişdi ki, Naxçıvanda çevrilişə cəhd olundu"

Jurnalist və mətbuat adamlarından da çox az bir hissə müraciətə qoşuldular. Onların içində Ağabəy Əsgərov, Vüqar Rəhimzadə, Rizvan Cəbiyev, Xeyrəddin Qoca, Ziya Paşa və daha bir neçə nəfər var idilər. Amma bütün bunlara baxmayaraq, "91"-lərin müraciəti qəbul olundu və Ümummilli Lider də onlara çox geniş xarakterli bir məqalə ilə cavab yazdı, həmçinin ölkənin düşdüyü ağır və böhtanlı vəziyyətdən çıxış yollarını göstərdi. Oktyabrın 24-də məqalə yenicə çap edilmişdi ki, Naxçıvanda çevrilişə cəhd olundu. Məqsəd Heydər Əliyevin partiya yaratmasına imkan verməmək idi. Onlar yaxşı bilirdilər ki, partiyanın yaradılması artıq onun birmənalı gəlişidir. Bilavasitə Azərbaycan Xalq Cəbhəsi və onun rəhbərliyi - Əbülfəz Elçibəy də, İsa Qəmbər də və başqaları da bu faktı inkar edə bilməzlər ki, həmin hadisələrin arxasında məhz onlar dayanırdılar.

## "Sonradan telefonçu qız Heydər Əliyevə ağlaya-ağlaya deyirmiş ki, Elçibəylə danışıqlarının ardınca o, Naxçıvandakı qiyamçı AXC üzvlərinə zəng edib məsələni tezləşdirməyi tələb edirdi"

Hətta Ulu Öndər özü bizə bəhs edirdi ki, o, Elçibəydən Naxçıvanda çevriliş etməyə cəhd göstərən adamlarının oradan yığışdırılmasını tələb edib. Həmin adamlar Naxçıvanın Daxili İşlər Nazirliyini, televiziyasını zəbt etmişdilər, həm də Ali Məclisə hücum etməyi planlaşdırırlar. Elçibəy danışıqlar zamanı vəd verdi ki, o qiyamçılarla danışacaq və AXC üzvlərini geri çəkilməyə səsləyəcək. Lakin sonradan telefonçu qız Heydər Əliyevə ağlaya-ağlaya deyirmiş ki, Elçibəylə danışıqlarının ardınca o, Naxçıvandakı qiyamçı AXC üzvlərinə zəng edib məsələni tezləşdirməyi tələb edirdi. Fakt budur ki, Elçibəy burada ikili oyun oynayırdı. Bax, bu idi onların xisləti, həm də Heydər Əliyevdən çəkinmələri faktı. Lakin xalq da imkan vermədi ki, AXC öz istəyinə nail olsun. Xalq birmənalı olaraq Heydər Əliyevi müdafiəyə qalxdı, çevriliş cəhdini yatırdı.

O vaxt biz Elmlər Akademiyasının əsas binasında yığışdıq və Heydər Əliyevin müdafiəsi komitəsini yaratdıq. Komitənin sədri isə Zahid Qaralov seçildi. Biz dərhal bəyanat hazırladıq, o zamankı Prezident Aparatına müraciət olundu, nümayəndə heyəti ayrıldı ki, bu işlərə son qoyulsun. Amma artıq zərurət ona gəldi ki, partiya təcili şəkildə təsis olunsun.

## "Birtəhər, kimin tanışı var idisə, yaxud digər imkanlar vasitəsi ilə cəmi 55 nəfər adamı 3-4 gün ərzində Naxçıvana apara bildik"

21 noyabrda partiyamız təsis olundu və biz adamları oraya çox çətinliklə apardıq. Bizim indiki səfirimiz Həsən Zeynalov o zaman Naxçıvanın daimi nümayəndəliyinin rəhbəri işləyirdi və onun da cəmi iki bronu var idi. Birtəhər, kimin tanışı var idisə, yaxud digər imkanlar vasitəsi ilə cəmi 55 nəfər adamı 3-4 gün ərzində Naxçıvana apara bildik. Bu işə də məsul mən təyin olunmuşdum. Yəni biletlərin əldə edilməsi, nümayəndələrin yola salınması, Naxçıvanda yerləşdirilməsi mənə tapşırılmışdı. Həmin vaxt orada yer də yox idi. Əksər nümayəndələr qonaq evində, bir hissəsi isə "Təbriz" mehmanxanasında yerləşdirilmişdi. O vaxt orada işıq, su, qaz yox idi, özü də möhkəm şaxtalı hava hökm sürürdü. Naxçıvan tam blokada dövrünü yaşayırdı. Orada bizə daha 500 nəfər Naxçıvanlılar qoşuldular və ümumilikdə 555 nəfərlə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Nəticədə, həmin təsis konfransından sonra bütün ölkə boyunca Yeni Azərbaycan Partiyasının yaradılması prosesinə start verildi.

Ardı Səh. 12

# “Heydər Əliyev dedi ki, sədaqətin, məhəbbətin ölçü vahidi zamandır”

Əvvəli Səh. 11

***-Təbii ki, Türkiyə qardaş ölkə idi və oradan Yeni Azərbaycan Partiyasının yaradılmasına dəstəklər göstərilirdi, bəs başqa hansı xarici ölkələrdən hər hansı dəstək mesajları gəldi, ümumiyyətlə, belə mesajlar var idimi? Bütövlükdə proseslər hansı istiqamətdə inkişaf edirdi?***

-Heydər Əliyevin nüfuzu onsuz da hər yerə yayılmışdı və hətta həmin vaxtlar ABŞ-dan, o zamankı prezident Bill Klinton tərəfindən Boing tipli humanitar yardım təyyarəsi Naxçıvana göndərilmişdi. Ümummilli Lider Naxçıvanda çox nəhəng işlər aparırdı. Yəni, Naxçıvandan yalnız Azərbaycan miqyaslı deyil, dünya miqyaslı işlər reallaşdırılırdı.

Digər tərəfdən, postsovet məkanında ilk olaraq Naxçıvanda keçmiş SSRİ-ordusu danışıqlar vasitəsi ilə tərksilah olundu. Heydər Əliyev keçmiş nüfuzundan istifadə edərək Naxçıvandakı ordunun Rusiyadan, Belarusiyadan, Ukraynadan və SSRİ-nin keçmiş respublikalarından olan rəhbər və komandir heyətləri ilə danışdı, eləcə də onların ölkələri ilə, müdafiə nazirlikləri və s. strukturları da danışıqlar apardı, həmin komandir heyətləri üçün öz ölkələrində işlər tapdı, o dövrlərin nüfuzlu biznes adamları ilə əlaqələr yaradaraq onların mənzil və s. sosial tələblərini həll etdi.

## “Naxçıvanın müdafiəsi də məhz bu silah-sursatlarla, texnikalarla təmin edildi”

Hansı ki, Naxçıvandakı silah və texnikaların hər biri Ermənistana göndərilmək üçün nəzərdə tutulmuşdu. Lakin Heydər Əliyevin nüfuzu və qətiyyətli iradəsi sayəsində həm ordunun komandir heyətləri öz ölkələrinə göndərildi, həm də silah və texnikalar Naxçıvana təhvil verildi. Halbuki, bu silahlar sonradan bizə qarşı işlədiləcəkdi. Ancaq buna imkan verilmədi və Naxçıvanın müdafiəsi də məhz bu silah-sursatlarla, texnikalarla təmin edildi.

Türkiyə ilə körpünün açılışı isə Naxçıvana nəfəs yolunu bəxş etdi. Çox qısa müddətdə böyük bir körpü tikildi. Burada da Süleyman Dəmirəllə, Turqut Özalla olan münasibətlər dayanırdı.

AXC hakimiyyəti Bakıda oturub İranda bayraq sancmaq haqqında danışırdı və bu da təbii ki, qonşu ölkəni qıcıqlandırırdı. Lakin Heydər Əliyev Naxçıvdandaykən İranla ticari əlaqələrini qurdu, bir sıra ehtiyaclar da İran vasitəsi ilə həll olundu.

## “Viktor Çernomırdin Pənah Hüseynovu qəbul etməmişdi”

Rusiya ilə əlaqələr çox mütəşəkkil şəkildə qurulmuşdu. Hansı ki, Azərbaycanın o zamankı hakimiyyəti Rusiya Federasiyası ilə də münasibətlərini tamamilə korlamışdı. Heç yerdə səslənməyən daha bir məsələni xatırladım. O zaman baş nazir olmuş Pənah Hüseynovu Moskvaya göndərmişdilər və onda Rusiyanın baş naziri Viktor Çernomırdin onu heç qəbul etməmişdi.

Qeyd edim ki, Çernomırdin bir zamanlar Heydər Əliyevin tabeçiliyndə işləmişdi, çox yaxşı da münasibətləri var idi. Həmin dövrlər həqiqətən də çox ağır və məşəqqətli zamanlar idi. Azərbaycanın büdcəsi boşalmışdı, tamamilə süpürülmüşdü. Zavodlar, fabriklər dayanmışdı. Strateji ərzaq məhsulları qıtlığı özünün son həddini yaşayırdı. Valyuta yox, milli valyuta da tədavülə buraxılmamışdı. Dəmir yolları bağlı idi və o zaman qiyam edən çeçenlər oradan - Şimali Qafqazdan keçən qatarlara hücumlar edirdilər. Tam bir qarışıq vəziyyət, tam bir anarxiya idi. Həmin vaxtlar isə bizim ən aktiv siyasi fəaliyyət vaxtlarımız olduğu üçün onların hər anı, hər dəqiqəsi yaddaşlarımızda həkk olunub.

## “AXC-Müsavat hakimiyyəti yaxın və uzaq ölkələrlə münasibətləri korlamışdılar”

Məhz belə bir vəziyyətdə Ulu Öndər getdi Moskvaya və bir həftə Moskvada qaldı və danışıqlara başladı, münasibətləri düzəltdi. Ondan sonra Elçibəyin Moskvaya səfəri oldu. Moskva isə onu qəbul eləmirdi. Bax, belə bir zamanda Heydər Əliyev Naxçıvanın Ali Məclisinin Sədri ola-ola Rusiyada böyük hörmətlə qarşılanırdı, Elçibəy isə Azərbaycanın rəhbəri olmasına rəğmən, Moskvada arzuolunmaz şəxs kimi görünürdü. Təsəvvürünüzə gətirin, AXC-Müsavat hakimiyyəti yaxın və uzaq ölkələrlə münasibətləri korlamışdılar. Gah Çinə bayraq sancırdılar, gah da iddia edirdilər ki, Orta Asiyada, məsələn, Özbəkistanda demokratiya yoxdur. Onlar hər tərəflə münasibətləri pozaraq çox çıxılmaz bir vəziyyət yaratmışdılar.

***-Ulu Öndərin Bakıya səfəri zamanı da bir sıra insidentlər yaşanmışdı...***

-Bəli, özü də dəfələrlə. Xatırladım ki, həmin ərəfələrdə Ulu Öndər Bakıya - qardaşı Həsən Əliyevin yas mərasiminə gələrkən o zamankı iqtidar bəyan etmişdi ki, Heydər Əliyevin təhlükəsizliyinə zəmanət vermirlər. Həmin vaxtlar mən də bir neçə dəfə Ulu Öndəri müşahidə etmişəm və onda da şahidi olmuşam ki, ona qarşı nə qədər manеələr törədilirdi.

## “Partiya olaraq biz Heydər Əliyev üçün 40 maşından ibarət mühafizə dəstəsi yaratdıq”

Və belə olan vəziyyətdə, yəni hökumət zəmanət vermədiyi bir halda biz bildirdik ki, Ulu Öndərin təhlükəsizliyinə özümüz, partiyamız zəmanət verəcəyik. Partiya olaraq biz Heydər Əliyev üçün 40 maşından ibarət mühafizə dəstəsi yaratdıq. Biz onu aeroportdan qarşıladıq və getdik yas yerinə. Səhəri gün isə qəbir üstünə getdik. Hətta həmin vaxtlarda o zamankı hakimiyyət İlham Əliyevin Naxçıvana - atası ilə görüşməyə getməsinə müxtəlif əngəllər yaradırdılar. Lakin buna baxmayaraq özüm də daxil olmaqla bir neçə dəfə İlham Əliyevi Naxçıvana müşayiət etmişəm.

Qeyd edim ki, o vaxtı, yəni Heydər Əliyev Bakıda olarkən Bakı şəhəri Baş Polis İdarəsinin rəisi bizə yaxınlaşdı ki, siz şəhəri tərk edin, çünki sizin şəhərdə hərəkət etməyiniz ictimai-siyasi sabitliyi pozur. Çünki xalq Heydər Əliyevi görür və ona yaxınlaşırdı, onunla salamlaşırdılar.

## “Bu olaydan sonra Murtuz müəllimə qarşı ağır xəsarətlər yetirildi, onun ayağını və əlini sındırdılar”

O zaman 26 Bakı komissarı adlanan indi isə Sahil bağı adlandırılan məkanda böyük bir kütlə toplaşdı, hamı qaçdı Heydər Əliyevə tərəf, kimlərsə onu qucaqlayır, kimlərsə özünün böyük ağsaqqalı qismində onun əlindən öpürdü. İndi təsəvvürünüzə gətirin - Naxçıvan Ali Məclisinin Sədri, dünya miqyaslı siyasətçi, böyük şəxsiyyət, Azərbaycanın qurucusu Heydər Əliyevin xalq tərəfindən hədsiz rəğbətlə qarşılanmasına qarşı Bakı şəhərinin Baş Polis İdarəsinin rəisi maneə törətməyə çalışır və deyir ki, siz ictimai-siyasi sabitliyi pozursunuz və s. Yəni onlar bu idi, onların qavrayış tərzləri bundan artıq deyildi. Bizi qoyaq kənara, görün indi o boyda nəhəng şəxsiyyət belələrinin hansı əməllərini görüb! Və bu cür hallar onlarla idi. Bu olaydan sonra Murtuz müəllimə qarşı ağır xəsarətlər yetirildi, onun ayağını və əlini sındırdılar. Ümumiyyətlə, partiyamızın bütün fəallarına zənglər edilirdi, ”91”lərin bir hissəsini prokurorluğa çağırıb döyürdülər ki, öz imzalarından imtina etsinlər. Heydər Əliyev haqqında məqalə yazanları həbs edirdilər və bütün bunlar ağır repressiyalar idi. Ona görə də biz hər zaman xatırlamalıyıq ki, YAP hansı şəraitdə, hansı vəziyyətdə yaradılıb.

***-Siyavuş müəllin, YAP-ın rayon təşkilatlarının yaradılması hansı proseslərdən keçib?***

- Partiyamız təsis olunduqdan sonra rayon təşkilatlarının yaradılmasına başlanıldı və onda da AXC hakimiyyəti bütün respublika üzrə fövqəladə vəziyyət elan etdilər ki, bu prosesin qarşısı alınsın. Müxtəlif yerlərdə, regionlarda görüş zallarını və s. yerləri bağladılar ki, toplantılar keçirilməsin. YAP-a Bakıda qərargah vermədilər. Biz Bakıda riyaziyyat institutunun iki otaqlı məkanında yerləşirdik. Bu otaqlar da ”SƏS” qəzeti ilə şərikli idi (gülür-R.R.) Doğrudan da, Ulu Öndərimizdə olan dözüm, səbir həmin proseslərin aşılıb-keçməsinə səbəb oldu. Əlbəttə ki, bütün bunlar bizə ruh yüksəkliyi verirdi.

***-Biz deyə bilərikmi ki, YAP yaranarkən artıq xalqımızın qələbə əzmi də həmin vaxtdan yarandı?***

-Deyim ki, təməl, əsas məhz onda qoyuldu. Əgər bu gün Azərbaycan güclü, qüdrətli, müstəqil, beynəlxalq aləmdə öz sözünü deyən bir dövlətdirsə, bütün bu uğurların hər birində Yeni Azərbaycan partiyasının yeri və rolu mövcuddur. Yəni bu mütləq bir reallıqdır. Əgər Ümummilli Lider Heydər Əliyev və Yeni Azərbaycan Partiyası olmasa idi indi müstəqil Azərbaycan da olmazdı. Çünki hər şey bizim gözlərimizin qarşısında idi. Ölkədəki hərc-mərclik, kim ucadan qışqırırdısa onu gətirib vəzifəyə təyin edirdilər. İdarəçilik sıfır həddində idi. Kənd təsərrüfatı, heyvandarlıq sahəsi yox olmuşdu. Müstəqillik isə əldə gedirdi. Bütün bunları təzədən yaratmaq, qurmaq kimi işlərin öhdəsindən yalnız və yalnız Heydər Əliyev kimi dahi şəxsiyyət gələ bilərdi.

***-Partiyanın gələcəyini necə görürsünüz?***

- Bilirsinizmi, hər bir partiyanın gələcəyi onun təməlindən asılıdır. YAP-ın gələcəyi əlbəttə ki, daha böyük uğurlara doğru inkişaf edir. Bir vaxtlar deyirdilər ki, YAP şəxsiyyət ətrafında yaranan partiyadır, yəni ideya ətrafında yarana partiya deyil. Biz isə deyirdik ki, ideyanı məhz şəxsiyyət irəli sürə bilər. Adi adam necə ideya verə bilər?

## “YAP-ın Proqramında qeyd edilənlərin hər biri Azərbaycanın Konstitusiyasında da yer alıb”

Bu baxımdan, YAP-ın ideyasını da məhz Ümummilli Lider Heydər Əliyev verib. Partiyanın Nizamnaməsi, Proqramı bu gün də nöqtəsi və vergülünə qədər dəyişilməyib. Bu inkişaf, tərəqqi Proqramdır və hazırda da öz uğurlu sözünü deməkdədir. Sosialı ədalət, demokratiya dəyərləri, hüquqların və azadlıqların qorunması və s. Həmçinin, YAP-ın Proqramında qeyd edilənlərin hər biri Azərbaycanın Konstitusiyasında da yer alıb.

***-Siyavuş müəllim, sonda istərdik ki, bəlkə də heç yerdə deməmiyiniz bir fikrinizi ilk dəfə olaraq "SƏS" qəzetinə açıqlayasınız. Bu söz həm də cəmiyyətimizə, gənclərimizə də bir xatırlatma olsun...***

- Elə bir söz var və o da Ümummilli Liderin sözüdür. Bir nəfər Naxçıvanda olanda Ulu Öndər Heydər Əliyevə sual verdi ki, Heydər Əliyeviç, hər şeyin ölçüsü var. Məsələn, elektrikin, çəkinin, uzunluğun, suyun və s. ölçü vahidləri mövcuddur, bəs sədaqətin, məhəbbətin bir ölçüsü varmı? Ulu Öndər dedi ki, var.

## Bizim gənclər, partiyamızda olanlar öz işlərinə, fəaliyyətlərinə, Ümummilli Liderin yoluna, partiyamızın Sədri, Prezident İlham Əliyevin yoluna sədaqətli olsunlar”

Və hamı gözləyirdi ki, belə bir ölçü vahidi necə adlanır? Heydər Əliyev dedi ki, sədaqətin, məhəbbətin ölçü vahidi zamandır. Onu zaman göstərir. Mən də hesab edirəm ki, bizim gənclər, partiyamızda olanlar öz işlərinə, fəaliyyətlərinə, Ümummilli Liderin yoluna, partiyamızın Sədri, Prezident İlham Əliyevin yoluna sədaqətli olsunlar. Çünki insanlardan tələb olunan əsas amil sədaqət və əqidədir. Əgər bunlar olmayacaqsa, nə qədər peşəkar olursa-olsun, o düz adam ola bilməz. Onu da təbii ki, zaman göstərir. Məsələn, biri vəzifədə olarkən deyir ki, mən bu siyasi yolda üçün canımdan da keçərəm, amma çıxarılan kimi gedir-oturur Əli Kərimlinin qucağında. Ona görə də zaman göstərir kimin-kim olduğunu. Bax, bu nüansı gənclərimiz həmişə yadlarında saxlasınlar.

***Müsahibəni aldı***
***Rövşən RƏSULOV***



ARAŞDIRMA

# Ailə balansını pozan əsas səbəblər nədir?

**Hər bir insan həm sevincini, həm də kədərini bölüşə biləcəyi bir həyat yoldaşı, tərəfdaş tapmaq arzusundadır. İlk münasibət həmişə evliliklə bitmir. Bəzən insanın arxasında çoxlu xəyanət, küskünlük, məyusluq olur, amma o, güclü ailə qurmaq ümidini buraxmır. Amma son vaxtlar boşanmaların ümumi sayı artıb. İnsanlar sanki keçmiş münasibətlərini qısa müddət ərzində unutmağa çalışır, öz xoşbəxtlikləri üçün mübarizəni dayandırırlar.**

Boşanmanlar ən çox aşağıdakı səbəblərə görə baş verir.

Məişət münaqişələri;
intim problemlər;
qısqanclıq;
etibarın olmaması;
qadağalar və s.

Cütlüklərin problemlərinin ən çox görülən səbəbi məişət münaqişələridir. Evlilik dövründə insanlar hər şeyin zamanla keçəcəyinə inanaraq bir çox çatışmazlıqlara göz yumurlar. Vaxt ötdükcə məlum olur ki, bəzi anlarda gözlərini yummağa gücü çatmır. Sonra çəkişmələr, münaqişələr və münasibətlərdə soyuqluqlar başlayır. Tərəfdaşlardan heç biri güzəştə getməyə hazır deyilsə, tezliklə ailə dağılır.

Çoxları üçün boşanma dünyanın sonu deyil, yeni xoşbəxt həyatın başlanğıcıdır. Münasibətləri yaxşılaşdırmaq üçün bütün cəhdlər edilibsə, lakin onlar nəticə verməyibsə, hər kəsə öz yeni xoşbəxtliyini tapmaq imkanı verilməlidir. Ailənin təməlini möhkəmləndirən ən mühüm cəhətlərdən biri ailədə uşaqların olmasıdır. Uşaqlar ailədə qadını və kişini bir-birinə bağlayan əsas amillərdəndir.

Uşaqların tərbiyəsində cinsi tərbiyə böyük rol oynayır. Bu tərbiyəni tez başlamaq lazımdır. Uşaqlar tez-tez bu sözləri eşidir: "Sən oğlansan", "Sən qızsan". Cinsi tərbiyənin ümumiyyətlə, tərbiyə kimi nə şəkildə, nə həcmdə uşağa çatdırılacağı tərbiyəçi tərəfindən nəzərə alınmalıdır. Ailələrdə atanın hörmətinin nisbətən azalması, uşaqların cinsi tərbiyəsinə mənfi təsir göstərir. Qadının hakim olduğu ailələrin qızları analarının xasiyyətlərini özlərinə nümunə seçərək, gələcəkdə bu xətti yürütməyə çalışacaqlar.

Əksinə, ataların əzazil xasiyyətli olduğu ailələrdə uşaqlar qadının cəmiyyətdəki rolu barədə yanlış fikirdə olurlar. Qızlar ərlərinin tələblərini qul kimi yerinə yetirir, oğlanlar isə qadına istismar obyekti kimi baxan kişilərə çevrilirlər.

Əgər uşaqlı ailədə boşanma varsa, o zaman valideynlər bu mərhələni ən az itki ilə keçməlidirlər. Bu vəziyyətdə olan uşaqların əziyyət çəkməməsi üçün vəzifələr təyin etmək və bütün detalları müzakirə etmək lazımdır. Hər bir ailə bir sıra mərhələlərdən keçir və psixoloqlar bildirir ki, böhran dövrləri münasibətlərin tamamilə normal bir hissəsidir.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova açıqlamasında bildirib: "Ailə münasibətlərinin təhlili, boşanma hallarının artması və boşanmanın səbəblərinin müayinəsi zamanın yaratdığı tələbə uyğun olaraq ailə qanunvericiliyinə əlavə və dəyişikliklərin edilməsini aktuallaşdırır.

Həmçinin, qloballaşma şəraitində dünyada gedən proseslər və çağırışlar, xüsusilə də ölkəmizin yeni inkişaf imkanları Azərbaycanda ailə siyasətinin prioritetlərini özündə əks etdirən müvafiq strategiyanın hazırlanmasını zəruri edir.

Çünki, ailə özü-özlüyündə mürəkkəb anlayışdır, çox tərəfli funksiyaları mövcuddur. Ailənin funksiyaları bir tərəfdən ailə - cəmiyyət, digər tərəfdən ailə - şəxsiyyət qarşılıqlı təsiri sistemini əks etdirir. Cəmiyyət sosial təsisat kimi ailəyə olan tələblər əsasında dəyişir və bunun müqabilində onun funksiyaları da fərqlənir. Lakin bunun belə, bəzi əsas funksiyalarını qeyd etmək olar: nəsil artırma, tərbiyə etmə, təsərrüfat-iqtisadi, rekreativ (ailə üzvlərinin bir-birilərinə qarşılıqlı köməyi, sağlamlığın qorunması, istirahətin təşkili), kommunikativ və tənzimləyici (ailədə ilkin sosial nəzarət, nüfuz və hakimiyyətin reallaşması və bölünməsi).

Ən təhlükəli məsələlərdən biri də internetin, sosial şəbəkələrin çox sürətlə ailələrə daxil olmasıdır ki, bu da qarşısıalınmaz bir prosesdir. Biz görürük ki, insanlar öz ailə üzvləri ilə müqayisədə virtual məkanda daha çox vaxt keçirirlər. Bu isə insanları bir-birindən uzaqlaşdırır, ər, övlad - valideyn ünsiyyətində soyuqluq yaradır. Xüsusən də bu böyüməkdə olan gənclərimizə, onların psixikasına mənfi təsir göstərir, asılılıq yaradır. Eyni zamanda, milli-mənəvi dəyərlərin aşınmasına yol açır. Burada xüsusilə, ailə quran cütlüklərin bir-biri və ailə qarşısında sosial və mənəvi məsuliyyət daşımasına toxunmaq istərdim. Bu hiss və cavabdehlik olmayanda, onun yerini eqoizm, natamamlıq tutur ki, bu da yenə ailədə neqativ halların yaranmasına səbəb olur.

***Havar Şəfiyeva***

## YAP-ın yaradılmasının 30 illiyinə həsr olunmuş minifutbol turniri davam edir

Oktyabrın 22-də Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş minifutbol turnirinin "play-off" mərhələsinin ilk gününün oyunları keçirilib. Qalib







gələn Sabunçu, Abşeron, Zaqatala, Tovuz, Salyan və Bərdə komandaları "play-off" mərhələsinin ikinci oyunlarına vəsiqə qazanıblar.

## "Adam tanıyıram ki, cibində 5 partiyanın biletini daşıyır"



"Bu, istinad etdiyimiz 20 ölkənin qanunvericiliyə əsasən yetərincə loyal qanun layihəsidir. Mən adam tanıyıram ki, cibində 5 partiyanın biletini daşıyır". SİA xəbər verir ki, bu sözləri "Siyasi partiyalar haqqında" qanun layihəsinin müzakirəsi zamanı deputat Elşən Musayev deyib.

Onun sözlərinə görə, biz son zamanlar bir çox məsələlərdə buradakı deputatlarla bərabərik: "Bu gün də çox əhəmiyyətli bir layihəni müzakirə edirik. Yaxınlaşmağımız çoxdan lazım idi. Bu məsələdə kimin hansı dərəcədə rolu varsa, onlara təşəkkür edirəm".

Elşən Musayev sözlərinə belə davam edib: "Demək olar ki, bütün siyasi partiyalar buradadır. Mənim bütün partiyalara məsləhətim odur ki, bu proseslərdə iştirak etsinlər və özlərini kənarda saxlamasınlar. Çünki ən ideal fikirlər bu müzakirələrdə olur".

***Ayşən Vəli***

# YAP-ın təsis edilməsinin 30 illiyinə həsr olunmuş "Nə? Harada? Nə zaman?" intellektual oyununa start verilib

**Oktyabrın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş "Nə? Harada? Nə zaman?" intellektual oyununa start verilib.**

"Azərbaycan İntellektual Klublar Assosiasiyası" İctimai Birliyi ilə əməkdaşlıq çərçivəsində YAP yerli təşkilatlarını və Gənclər Birliyini təmsil edən 77 komandanın iştirakı ilə keçirilən intellektual oyunun seçmə mərhələsi üzrə yarışlar Bakı, Quba, Şəki, Şəmkir, Ağcabədi, Masallı və Göyçayda təşkil olunub.







Komandaları ümumilikdə təmsil edən 616 nəfər gənc ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, Yeni Azərbaycan Partiyasının 30 illik tarixi, 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə və ölkəmizin müasir tarixində baş verən mühüm hadisələrlə əlaqədar sualları cavablandırıblar.

Hər qrup üzrə 3 qalib komanda (ümumilikdə 21 komanda) 06.11.2022-ci il tarixində Gülüstan Sarayında keçiriləcək final mərhələsində I-III yerlər üzrə mübarizə aparacaqlar.

# "Ermənistanın sülh danışıqları vaxt qazanmağa yönəlib"

"Ermənistanla Azərbaycan arasında 12-14 sentyabrdan sonra yeni bir danışıqlar mərhələsi başlamışdır. Ancaq Vaşinqtonun və Brüsselin vasitəsilə danışıqlar prosesi məhz Praqada dördtərəfli bəyannamənin imzalanması ilə davam edəcəkdi. Amma Ermənistan tərəfinin Azərbaycan ərazi bütövlüyünü tanıdığı rəsmi şəkildə elan edildi. Paşinyan da daimi qeyd edirdi ki, biz Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq". Bunu politoloq Məhəmməd Əsədullazadə SİA-ya açıqlamasında deyib.



Onun sözlərinə görə, MDB-nin Astana sammitində dövlət başçısı İlham Əliyev məhz Ermənistana, Paşinyana mesaj kimi Zəngəzur dəhlizinin açılması və 10 noyabr birgə bəyannamənin xüsusilə, 4 və 9-cu bəndin yerinə yetirilməsini qeyd etdi: "Qeyd edim ki, ABŞ-ın milli təhlükəsizlik katibinin vasitəçiliyi ilə Vaşinqtonda görüş keçirilmişdi və orada sülhün detalları müzakirə olunmuşdur. Azərbaycan tərəfi də Ermənistana sülh müqaviləsi istiqamətində mətni verib. Amma Ermənistan tərəfi göründüyü kimi müxalifətə keçməsinə, növbəti hərbi zərbələr almasına baxmayaraq manipulyasiya edir. Biz Ermənistanın Hindistandan və digər ölkələrdən silah almasını, müdafiə nazirinin səfərlərini, yeni silah tədarükü istiqamətində apardığı danışıqları görürük. Həmçinin Ermənistanın Daşkəsən və Kəlbəcər istiqamətindən mütəmadi atəşkəsi pozması, yeni artilleriya vasitələri, hərbçilər yığdığını və hərbi səfərbərlik, toplanışlar həyata keçirdiyinin şahidi olduq".

Politoloq onu da bildirib ki, əgər Ermənistan tərəfi sülh müqaviləsində maraqlı idisə əldə olunan razılaşmaları yerinə yetirməli idi və bu kimi silahlanma həyata keçirməzdi: "Ona görə də, düşmürəm ki, Ermənistanla sülh müqaviləsinin ilin axırına kimi bağlanmasına iki ay vaxt qalır və bu iki ay Ermənistanın atdığı addımlar birmənalı deyil və bu müharibəyə hazırlıq kimi başa düşülməlidir. Ermənistan tərəfi mütləq şəkildə bu siyasətindən əl çəkməlidir. Amma göründüyü kimi, Ermənistan bu siyasətindən əl çəkmir və onların sülh danışıqları sülh bəyanatları hesab edirəm ki, manipulyasiya və vaxt qazanmaqdır".

*Gülyana*



Təhmasib Novruzov

# Makron+Raisi+Paşinyan+Kərimli = ermənikratiya!

**Sizləri bilmirəm, əziz oxucular, mən bu labirintləşmiş dünyada çox düyünlər var ki, onlara qətiyyən təəccüblənmirəm. Nədən ki, ağzımızda "labirintləşmiş dünya" deyirik, bunda düyünlər də olacaq, o düyünlərin ilgəklərini tapanlar da!.. Amma hərdən elə düyünə rast gəlirsən ki, inanmırsan onun ilgəkini aça biləcək, yaxud açmaq istəyəcək kimsə olsun.**

Bu, ilgəyi hələ də tapılmayan düyünlərdən biri də ermənikratiyadır. İndi oxucum məni qınayacaq ki, partokratiya var, demokratiya var, nə bilim daha nə kratiyalar var, amma ermənikratiya nə deməkdir? Mənim elə də yüksək siyasi savadım yoxdu. Amma gödək siyasi biliyimlə apardığım təhlillərdən gəldiyim qənaət odur ki, dünyada belə bir "...kratiya"da var. Məsələn, ötən minilliyin IV-V əsrlərində məhz fransızların və yunanların qovub ərazilərindən zibil parçası kimi çölə atdıqları, sonradan erməni olmuş haylara məhz türklər rəhm elədi, qucaq açdı, Osmanlı ərazilərində yer verib yaşamalarına şərait yaratdı. Sonra Osmanlıya qarşı xəyanət edən bu iyrənc tayfa həmin ərazilərdən qaçanda yenə onlara türklər, bu dəfə Azərbaycan türkləri yer verdi ki, yazıqdılar, yaşasınlar. Düzdü, istəyimizlə olmadı, amma yenə bizim tarixi ərazilərimizdə yaşayıb gün gördülər. Hətta İranda din düşməni kimi dini fundalistlərin əlində qalan haylar da yığılıb töküldülər Azərbaycan ərazilərinə. Sonrakı hadisələr də hamıya məlumdur və onları danışıb vaxt almaq istəmirəm. Yəni, dediyim odur ki, bu haylar nə qədər iyrənc tayfa olsa da, "əl tutmaq Əlidən qalıb" deyərək, onlara qucaq açan tarixən bizlər, yəni türklər olmuşuq. İndi fransızlar, yunanlar, farslar olublar ermənilərin dostları, türklər olublar düşmənləri. Hayları özlərinə yaraşdırmayıb didərgin salanlar olublar ermənikratlar! Burda bir balaca xatırlatma da yerinə düşər. Hər kəs yaxşı bilir ki, dünyaya Pəhləvilər sülaləsi tanıdılan, ötən əsrin üçüncü onilliyində Böyük Britaniyanın və Niderlandın əli ilə İranda hakimiyyətə gətirilən Palanilər (yəni palantikənlər) nəslinin taxtdan salınması və ötən əsrin 70-ci illərində bu ölkədə islam fundamentalizminə əsaslanan dini dövlətin yaradılması da Fransanın birbaşa qirduğu oyun idi. On ildən çox Fransada yaşayan və məşrutə inqilabından dərhal sonra Tehrana göndərilən Xomeyninin fransız beyinli olduğuna heç kimin şübhəsi ola bilməz. Yəni, bu günkü İranı idarə edən fars rejiminin də birbaşa Parisdən təlimat aldığı şəksizdi. Siyasi savadım zəif olduğuna görə məsələnin digər aspektlərindən danışmaq istəmirəm. Qorxuram dediklərim beynəlxalq krizə yol açsın. Yəni, Parisin əli ilə hakimiyyətə gələn Xomeyninin ABŞ-a, İsrailə və Böyük Britaniyaya bəslədikləri nifrət və qəzəbin də əsasında Fransa siyasilərinin təsirindən danışmağı deyirəm, sonra bu ölkələr girərlər bir-birinə, səbəbkar da məni tutarlar. Ona görə bu barədə damışmaqdan vaz keçirəm...Gəlirik Şuşada sərxoş olub yallı gedən, sonra da hər dəfə televiziyalarda Şuşada Azərbaycan Prezidentinin ağır-ağayana "Şuşa Azərbaycandır" deməsinə dözməyib iran, yunan və fransız dostlarının dabanlarını yalamaq üçün əldən-ayaqdan gedən Paşinyana və bu ölkələrin də dabanlarını yalatmaqdan xoşlanaraq can-başla ayaqlarını irəli uzatmalarına! Burda da təəccüblü nəsə yoxdu. Hayların tayfa kimi formalaşdıqları son üç yüz ildə güclü hesab etdiklərinin dabanlarını yalamaları onların adət etdikləri milli ənənələridir. Bütün bunlar aydındı və labirintin bu düyünlərini açmaq Türkiyə və Azərbaycan üçün elə də ciddi problem deyil.

İndi gələk aydın olmayan və ilgəyini tapmaq müşkül olan labirint düyününə. Neçə gündü bizim gözəl-göyçək, özü yatan, amma özü dura (yəni oyana) bilməyən, kimlərinsə qıdıqlamasından sonra yuxudan ilan vurmuş kimi dik qalxan siyasətçimiz..., lənət şeytana, siyasi dəllalımız Əli Kərimliyə. Bu gədənin sənədlərində yazılanlara inansaq, nə ermənidir, nə farsdır, nə yunandır, nə də fransız. Orda yazılıb ki, azərbaycanlıdır, yəni Azərbaycan türküdür. Lap elə hesab edək ki, Azərbaycan türkü deyil, Azərbaycanda yaşayan digər hansısa millətin nümayəndəsidir və cibində Azərbaycan Respublikasının vətəndaşı olduğunu təsdiq edən vəsiqə gəzdirir. Axı 44 günlük savaşda bu ökənin milliyyətindən, dinindən asılı olmayaraq bütün vətəndaşları canlarından keçməyə hazır olduqlarını dünyaya sübut elədilər. İndi döyüş meydanında savaş bitsə də, siyasi və informasiya savaşı davam etdiyi bir zamanda bu adam niyə Fransanın prezidenti Makronun müdafiəsinə qalxır? Bir neçə il əvvəl də İranın Azərbaycandakı emissarlarını ifşa edəndə Azərbaycan hüquq-mühafizə orqanlarına belə çamırlar atırdı. Təbii ki, hayları torpaqlarımızdan qovanda da bu qeyrət savaşına dəstək verməyən iki siyasi qurum başqanından biri oldu. Yəni Əlinin fransız, hay və fars sevgisi nədən qaynaqlanır? Puldan? Yox, inanmıram, pulu onsuz da verirlər və verəcəklər, çünki nə qədər axtarsalar da öz ölkəsinə bu qədər naxələf məxluq tapa bilməyəcəklər. Deməli, torbada nəsə başqa pişik var. Yəni bu erməniçilik, hay sevgisi, ermənikratiya nə qədər dərinlərə kök salıb ki, türk olduğunu iddia edən birisi də bu ...kratiya xəstəliyinə tutulub? Bax mənim ilgəyini görə bilmədiyim düyün də elə budur. Bunun ilgəyini tapmaq üçün Əlinin qanı hərtərəfli yoxlanmalıdır. Sadəcə qan analizi demirəm ey... HƏRTƏRƏFLİ!

# Yoxsulluğun azaldılması proqramı: nəyə nail olunub?

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” çərçivəsində hazırlanıb.

## Neft-qaz gəlirlərinin hansı sosial-iqtisadi sahələrə yönəldilməsi vacibdir?




**II HİSSƏ**

Son illərdə aparılan uğurlu iqtisadi siyasət nəticəsində ümumi makroiqtisadi sabitlik qorunub saxlanılıb, iqtisadi artımın davamlılığı təmin edilib, sahibkarlığın inkişafı geniş vüsət alıb, xüsusilə regionlarda yeni iş yerlərinin yaradılması genişləndirilib. Bütün bunlar əhalinin gəlir əldə etmək imkanlarının artmasına və rifahının əhəmiyyətli dərəcədə yaxşılaşmasına təsirini göstərib.

Son 15 ildə həm ÜDM, həm dövlət büdcəsi, həm də strateji rezervlər artmaqdadır. Bu dövr ərzində neft və qaz ixracından gələn gəlirlər dəfələrlə artıb. Xarci ticarətdə müsbət saldo ildən ilə artır.

Dövriyyədə valyuta təklifi artdığından xarici təzyiqlərə baxmayaraq manatın məzənnəsi sabit saxlanıb. Azərbaycan Mərkəzi Bankı tərəfindən valyuta bazarına mümkün səviyyədə alışyönlü müdaxilələr həyata keçirilib, iqtisadiyyatda yaranmış izafi likvidliyi neytrallaşdırmaq üçün sterilizasiya siyasəti çərçivəsində Milli Bankın qısamüddətli notlardan istifadəsi davam etdirilib. Gəlirlərin kəskin artması dövlət büdcəsində profisin ildən ildə artmasına səbəb olur.

Beləliklə, Azərbaycan ÜDM-in və dövlət büdcəsinin artım tempinə görə nəinki regionda, hətta dünyada ön sıralardadır. Lakin son illərdə qlobal iqtisadi böhranlar ölkəmizə də öz təsirini göstərir. Dünya bazarında bir çox məhsulların bahalaşması, xaricdən ölkəyə gələn məhsulların, eləcə də bəzi xidmətlərin qiymətlərinin artmasına səbəb olub. Pandemiya dövründə bir çox iş yerləri bağlanıb, bəzi sahələrdə istehsal və ixrac azalıb. Əhalinin sosial müdafiəyə ehtiyacı çoxalıb.

Cari ildə neftdən gələn gəlirlər nəzərdə tutulandan 2 dəfə, qaz gəlirləri 4 dəfə şox olub. İrihəcmli neft və qaz gəlirlərinin iqtisadiyyata mümkün mənfi təsirinin qarşısının alınması, onun qeyri-neft sektorunun inkişafına yönəldilməsi, həmçinin yoxsulluğun azaldılması və insan kapitalının inkişafının təmin edilməsi məqsədilə müxtəlif dövlət proqramları həyata keçirilməsi vacibdir.

Burada təksə sosial yardımlar yox, həm özünüməşğulluğa və kiçik sahibkarlığa dəstəyin artırılmasına ehtiyac var. Bunun nəticəsində yüz minlərlə yeni iş yerləri açılar, dövlətin sosial yükü azalardı. Paralel olaraq, ümumi daxili məhsul da artardı.

Ölkədə qeyri-neft sektorunun inkişafı və bu sketorun beynəlxalq səviyyədə rəqabət qabiliyyətini artırmaqla onun dünya iqtisadiyyatına inteqrasiyasına şərait yaradılmalıdır. İnvestisiyaların idarə olunması prosesinin şəffaflaşdırılması, xüsusi mülkiyyətin qorunması və korporativ idarəetmənin təkmilləşdirilməsi, bütün investorlar üçün azad rəqabət mühitinin yaradılması məqsədilə mövcud normativ hüquqi baza təkmilləşdirilməlidir.

Eyni zamanda, regionların davamlı və sistemli inkişafının təmin edilməsi və bu prosesdə dövlət investisiyalarının səmərəliliyinin artırılması məqsədilə müvafiq beynəlxalq təşkilatlarla birgə şəhər və regionların uzunmüddətli kompleks inkişaf planlarının hazırlanması və həyata keçirilməsi istiqamətində tədbirlər həyata keçirilməlidir.



Eyni zamanda, istehlakçıların hüquqlarının dövlət tərəfindən müdafiəsi gücləndirilməli, istehlak mallarının istehsalı, idxalı və ixracının, topdan və pərakəndə satışının həyata keçirilməsi zamanı onlara mane olan hallar aradan qaldırılmalıdır. Sahibkarlığın inkişafına yardım üçün dövlət büdcəsindən ayrılan güzəştli kreditlərin həcminin artırılması və regionlarda sahibkarların bu vəsaitlərə çıxış imkanlarının genişləndirilməsi təmin edilməlidir, gənclərin və əhalinin həssas qruplarının sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına yönəlmiş tədbirlər artırılmalıdır.

Ölkə əhalisinin təqribən 48%-dən çoxu kənd yerlərində yaşadığına görə kənd təsərrüfatı sektoru ailə təsərrüfatlarının müvafiq iş yerləri ilə və gəlirlərlə təmin edilməsində mühüm mənbədir. Bu baxımdan, torpaqların istifadəsində ekoloji davamlılıq prinsiplərini qorumaqla, kənd təsərrüfatı istehsalçılarının müvafiq olaraq kreditlərdən, kənd təsərrüfatı texnikasından və digər zəruri resurs və xidmətlərdən istifadə imkanlarının yaxşılaşdırılması xüsusi əhəmiyyət daşıyır.

Kənd yerlərində layiqli məşğulluq və özünüməşğulluq imkanlarının genişləndirilməsi üçün ərzaq məhsulları istehsalçılarının vergilərdən azad olunması təmin edilməli, kənd təsərrüfatı ilə məşğul olan əhalinin maliyyə-kredit mənbələrindən istifadə imkanları yaxşılaşdırılmalıdır. Təbii fəlakətlər nəticəsində kənd təsərrüfatı məhsulları istehsalçılarına dəyən ziyanın azaldılması məqsədilə sığortalanması təmin edilməlidir.

Emal müəssisələri şəbəkəsinin genişləndirilməsinin dəstəklənməsi və kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılması məqsədilə mütərəqqi texnologiyaların tətbiqi dəstəklənməli, habelə özəl sektorun iştirakı ilə kənd təsərrüfatının zəruri bazar infrastrukturu ilə təmin olunması genişləndirilməlidir. Bitkiçilik məhsulları istehsalının intensiv inkişafının təmin olunması məqsədilə fermerlərin toxum, suvarma suyu və gübrə ilə təminatı yaxşılaşdırılmalıdır. Həmçinin toxumçuluq, tingçilik və damazlıq təsərrüfatı müəssisələri inkişaf etdirilməlidir.



Kənd təsərrüfatının yüksək ixtisaslı mütəxəssislərlə təmin olunması məqsədilə aqrar sahədə kadr hazırlığı sistemi təkmilləşdirilməsinə, aqrar elmin maddi-texniki bazası möhkəmləndirilməsinə, fermerlərin idarəetmə vərdişlərinin və biliklərinin artırılması üçün təlimlərin, təcrübələrin yayılması və elmi tədqiqatlar həyata keçirilməsinə ehtiyac var.

Kənd təsərrüfatının inkişafı kənd yerlərində məşğulluğun artması və aqrar sahədə çalışan əhali qrupu üçün gəlir mənbəyinin genişlənməsi ilə yanaşı, ölkənin ərzaq təhlükəsizliyinin yüksəldilməsində də həlledici əhəmiyyətə malikdir. Son vaxtlar dünya ərzaq bazarlarında, eləcə də, Azərbaycanda müşahidə olunan bahalaşma əhalinin, xüsusilə onun aztəminatlı hissəsinin ərzaqla təminatına və həyat səviyyəsinə mənfi təsir göstərməyə bilməz. Bu baxımdan, daxili ərzaq bazarının idxaldan asılılığının azaldılması və əhalinin ərzaq məhsullarına tələbatının əsasən yerli istehsal hesabına təminatı xüsusi əhəmiyyət kəsb edir.

Ərzaq təminatının yaxşılaşdırılması məqsədilə ilk növbədə ölkədə aqrar sahibkarlığın inkişafı, ev təsərrüfatlarının iqtisadi imkanlarından daha səmərəli istifadə edilməsi, eyni zamanda yerli ərzaq növlərinin istehlakı və istehsalına üstünlük verilməsi üçün əhalinin istehlak vərdişlərinin dəyişdirilməsi sahəsində sistemli tədbirlər həyata keçirilməlidir.

Məlum olduğu kimi, işsizlik yoxsulluğu yaradan əsas amillərdən biridir. Beynəlxalq Əmək Təşkilatının metodologiyasına əsasən aparılmış hesablamalara görə, 2022-ci ildə ölkədə işsizlərin sayı 315 min nəfərə çatıb, bu da iqtisadi fəal əhalinin 7%-ni təşkil edir.

Dövlət məşğulluq siyasəti aktiv və passiv tədbirlər vasitəsilə işsizlərə yardım göstərilməsini nəzərdə tutur. Passiv tədbirlər, əsasən, işsizliyə görə müavinətlərin verilməsindən ibarətdir. Aktiv tədbirlər isə, əsasən, peşə təlimlərinin təşkil edilməsi, əmək yarmarkalarının keçirilməsi və sair kimi çoxsaylı tədbirləri əhatə edir və əsasən, əmək bazarının təşkilinə və təkmilləşdirilməsinə, işçi qüvvəsinin iqtisadiyyatın tələblərinə uyğunlaşdırılmasına yönəlib.

Hazırda bu sahədə əsas məsələ əmək qabiliyyətli əhali üçün xüsusilə də qeyri-neft sektorunda, səmərəli məşğulluq imkanlarının daha da genişləndirilməsindən ibarətdir.

Digər mühüm məsələ əməkhaqqının tənzimlənməsi mexanizminin təkmilləşdirilməsidir. Yoxsulluğun monitorinqi nəticələrindən məlum olur ki, azmaaşlı və azməhsuldar iş yerlərinin çoxluğu məşğul əhalinin yoxsulluq riskini azaltmağa imkan vermir. Məşğul əhali arasında yoxsulluq riskini azaltmaq üçün son illərdə minimum əməkhaqqının artırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilib. Minimum əməkhaqqı mərhələlərlə artırılaraq 300 manata çatdırılmışdır. Lakin inflyasiyanın sürətlənməsi bu pulun əmttə gücünü azaldıb və əvvəlki 200 manat dəyərinə salıb. Bu səbəbdən də, əldə olunan neft-qaz gəlirlərinin əhəmiyyətli bir hissəsinin sosial müdafiəyə, maaş və pemnsiya artımlarına yöənldilməsinə ehtiyac böyükdür.

Davamı olacaq

*Elçin Bayramlı*

SON SƏHİFƏ
SƏS
25 oktyabr
2022-ci il

# Miqrenin müalicəsi varmı?

**Miqrendən əziyyət çəkənlərin əksəriyyəti, həkimə müraciət etməyərək, saatlarla ağrıya dözməyə üstünlük verirlər. SİA xəbər verir ki, bu böyük səhv hesab edilir! Çünki nəbz vurğusu kimi pulsasiya edən baş ağrıları nəinki miqrenin, məsələn beyin şişinin də əlaməti ola bilər!**

Bundan savayı müalicə olunmayan miqren çox ağır fəsadlara gətirib çıxara bilər! Onlardan biri - miqrenoz statusdur. Bu, bir-birinin ardınca davam edən bir sıra ağır miqren tutmaları və ya qeyri-adi dərəcədə güclü olan bir, lakin uzun sürən (72 saatdan artıq) miqren tutması şəklində baş verir. Baş ağrısı - başın bir yarısından "şişib daşaraq" bütün başa yayılır.



Miqrenoz status zamanı çoxsaylı qusma baş verdiyi üçün, hətda bu, bədənin susuzlaşmasına və qıcolmaların yaranmasına da səbəb ola bilər. Bu vəziyyətdə olan xəstəyə müvafiq tibbi xidmət göstərmək üçün, onu təcili şəkildə xəstəxanaya çatdırmaq lazımdır.

Miqrenin nadir şəkildə təsadüf edilən mümkün fəsadlarından bir də, miqrenoz insultdur - baş beyinin qan dövranının kəskin şəkildə pozulmasıdır. Miqrenoz insultun əlamətləri - qol və ayaqda zəiflik (bəzən isə iflicə qədər), yerişin və bədənin tarazlığının, nitqin (sözlərin deyilməsinin çətinləşməsi), görmənin (çəpgözlülük, görmədə ikiləşmə, görmənin zəifləməsi) pozulması, kəskin baş gicəllənməsi və s. bu kimi əlamətlər ola bilər. Bu halda tez bir zamanda "təcili yardım" çağırmaq lazımdır! Həkim xəstəyə müvafiq tibbi yardım göstərdikdən sonra, diaqnozu təstiqləmək və müalicə etmək üçün, tezliklə onu xəstəxanaya çatdırmalıdır!

Müasir müalicə üsullarının düzgün şəkildə tətbiq edilməsi miqren tutmalarının sayının azalmasına, müddətinin qısalmasına, ağrıların yüngülləşməsinə səbəb olur. Buna görə də miqrendən əziyyət çəkən xəstələr mütləq həkimə müraciət etməlidirlər və bu müraciət nə qədər tez olarsa, onlar üçün daha yaxşı olar. Hal hazırda, bu xəstəlik zamanı yaxşı təsirə malik olan müasir dərman preparatları hazırlanmışdır.

Miqren zamanı, xəstənin vəziyyətini yüngülləşdirmək üçün, tətbiq edilən dərman preparatlarından savayı aşağıdakı üsullardan da istifadə etmək olar:

- Miqrenin aurasını və ya onun başlanğıcını hiss edən kimi, gördüyünüz hər bir işi dayandıraraq özünüzə tam rahatlıq verin. Ən yaxşısı uzanaraq yatmağa çalışmaq lazımdır. Hətta siz sadəcə olaraq, tam sakit şəkildə kresloda otursanız, bu miqren tutmasını xeyli yüngülləşdirəcək.

- Əgər siz evdəsinizsə, sizi qıcıqlandırmamaq üçün otaqdakı pərdələri bağlayın və ya işığı söndürün.

- Otaqda sakitliyi təmin etmək də yaxşı olardı, çünki kəskin və yüksək səslər miqren tutmasının gedişini ağırlaşdıran faktorlardandır.

- Miqren tutması zamanı heç bir halda alkoqollu içki qəbul etməyin və siqaret də çəkməyin - onlar sizə ancaq ziyan vura bilər.

- Xalq təbabəti üsullarından miqren tutması zamanı bir neçə fincan tünd isti çay və ya kofe, ayaqlarını isti suya qoymaq, alın nahiyyəsinə soyuq kompress, limon dilimləri, kələm yarpağı, baldırlara xardal kağızı qoymaq, qicqahlara lavanda, evkalipt, rozmarin efir yağlarından bir neçə damcı yüngül sürtmək və s. kömək edə bilər.

# Əgər kişinin iş yeri yoxdursa, bu zaman aliment tələb olunurmu?

"Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinə əsasən, uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir. Valideynlərin uşaqlarını saxlamaq vəzifəsi Konstitusiyada nəzərdə tutulan və dövlətin əsaslarından birini təşkil edən müddəadır". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.



Vəkil açıqladı



Onun sözlərinə görə, Ailə Məcəlləsinin 75.1-ci maddəsinə əsasən, valideynlər uşaqlarını saxlamağa borcludurlar: "Qanunvericiliyə əsasən, tərəflərin ailə və maddi vəziyyəti, eləcə də diqqətəlayiq olan başqa hallar nəzərə alınmaqla aliment azaldıla bilər. Yəni, işləməmək atanı aliment ödəməkdən azad etmir. Qanunvericilikdə işləməməyə və maddi duruma görə aliment öhdəliyindən azad etmə anlayışı yoxdur. Həmin Məcəllənin 66.2-ci maddəsinə əsasən, hətta valideynlik hüquqlarından məhrum edilmiş valideynlər uşaqların saxlanmasını təmin etmək vəzifələrindən azad edilmirlər".

*Ayşən Vəli*

# İki gündə yol qəzalarında 11 nəfər ölüb

Həftəsonu Azərbaycanda yol qəzalarında 11 nəfər ölüb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, oktyabrın 22-23-də respublikanın avtomobil yollarında ölümlə nəticələnən 11 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 11 nəfər dünyasını dəyişib.



# Kafedən mobil telefon oğurlayan keçmiş məhkum tutulub

**Nizami Rayon Polis İdarəsinin 24-cü polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində Q.Qarayev prospektində yerləşən kafelərin birində oradakı işçinin mobil telefonunu oğurlamaqda şübhəli bilinən Ağdam rayon sakini, əvvəllər dəfələrlə məhkum olunmuş Bakir Nuriyev müəyyən olunaraq saxlanılıb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəxsi axtarış zamanı ondan heroin aşkarlanaraq götürülüb. Faktla bağlı rayon polis idarəsi tərəfindən araşdırma aparılır.



Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600